# Balaca Tacirlərin Macəraları

**1-ci hissə**

**5–7 yaşlı uşaqlar üçün**

Sağlam Təhsil texnologiyalarına əsasən işlənmiş və davranış mədəniyyəti standartlarını reallaşdıran inteqrativ dərs vəsaiti




Müdrik · Haqbilən · Ləyaqətli · Yaradıcı · Mütərəqqi · Güclü · Mərd · Təşkilatlanan


Həyatda insan hər şeyi öyrənir,
iki keyfiyyətdən başqa: sədaqət və cəsarət,
bu keyfiyyətlər insanın qanında olur!
ÜMUMMİLLİ LİDER
HEYDƏR ƏLİYEV

ADPU-nun 18 iyul 2024-cü il tarixli Elmi Şuranın
iclasının 9 saylı protokoluna əsasən

Uşaqlar üçün "Balaca Tacirlərin Macəraları" dərsliyi Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sifarişi və Paşa Holding-in dəstəyi ilə KOB-lar üçün İnsan İnkişafı Forumu və Platforması layihələri çərçivəsində Milli Təhsil Texnologiyaları Mərkəzi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Tibb Universiteti və İnkişaf Korporasiyasının birgə işçi qrupu tərəfindən hazırlanmışdır:

KOBİA
Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

PAŞA Holding

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

Azərbaycan Tibb Universiteti

MİLLİ TƏHSİL TEXNOLOGİYALARI MƏRKƏZİ

İNKİŞAF KORPORASİYASI

Bakı-2025

## İşçi qrupun rəhbəri

Xalidə Aydın qızı Həmidova - ADPU-nun baş müəllimi, p.ü.f.d.,
kitabın elmi redaktoru, **Sağlam Təhsil üzrə mütəxəssis**

## Pedoqoji blok - müəlliflər

Xalidə Aydın qızı Həmidova - ADPU-nun dosent, p.ü.f.d.,
Məktəbəqədər və **Sağlam Təhsil üzrə mütəxəssis**

Vüsalə Sərdar qızı Əliyeva - ADPU-nun baş müəllimi, p.ü.f.d.,
ibtidai və **Sağlam Təhsil üzrə mütəxəssis**

Şahnaz Əlövsət qızı Yusif-zadə - Bakı şəhəri 161 nömrəli tam orta məktəb
ibtidai sinif müəllimi. **Sağlam Təhsil sinifləri üzrə "Fəal müəllim"**

## Sosioloji blok

Nigar Faiq qızı Şahhüseynbəyova - Azərbaycan Universiteti,
Sosial işin təşkili kafedrasının müdiri, s.ü.f.d., MTTM-in sədri

## Tibb-gigiyenik blok

Şəhla Murad qızı Balayeva - ATU, Uşaq-Yeniyetmələrin sağlamlığı və
əmək sağlamlığı kafedrasının müdiri, t.ü.f.d., dosent

## Rəyçilər

Piralı Behbudalı oğlu Əliyev - Pedaqogika üzrə elmlər doktoru, professor, Bakı Slavyan Universitetinin pedaqogika və psixologiya kafedrasının müdiri

Nailə Tofiq qızı Hüseynova - ADPU-nun Məktəbəqədər təhsil fakültəsinin dekanı, p.ü.e.d. dosent

Könül Nəriman qızı Həsənova - ADPU-nun filologiya fakültəsinin dekanı, f.ü.f.d.

Aytəkin Ağamusa qızı Axundova - Bakı Slavyan Universitetinin ibtidai təhsil kafedrasının müdiri, b.e.f.d.

Zöhrə Qoca qızı İsmayılova - ATU, uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının dosenti, t.ü.f.d.

Afaq Camaləddin qızı Hüseyn - UNEC, "Biznesin idarə edilməsi" kafedrası, dosent, i.e.n.

Kifayət Aslan qızı Xudaverdiyeva - UNEC, "Biznesin idarə edilməsi" kafedrası, dosent

## Tərtibat üzrə blok

Novruz İsa oğlu Səfərəlizadə - Art direktor

Aysun Mansurlu - Səsləndirmə və texniki işlər

# Mündəricat


Dərs 1 Bilik günü

Dərs 2 Balaca Elman

Dərs 3 Düyməcik

Dərs 4 Gülərin gəlinciyi

Dərs 5 Küsən kitab

Dərs 6 Vətənimiz

Dərs 7 A hərfi

Dərs 8 N hərfi

Dərs 9 Ə hərfi

Dərs 10 T hərfi

Dərs 11 L hərfi

Dərs 12 M hərfi

Dərs 13 İ hərfi

# Məndəricat


Dərs 14 I hərfi

Dərs 15 B hərfi

Dərs 16 Y hərfi

Dərs 17 S hərfi

Dərs 18 Ş hərfi

Dərs 19 F hərfi


Azərbaycan dili

Riyaziyyat

Təsviri incəsənət

Musiqi

Texnologiya

Həyat bilgisi

Dərslər rəng kateqoriyasına görə bölünmüşdür

# İnsan inkişafı, biznes mədəniyyəti, “Sağlam təhsil” və “Birgə Kod”

Bu inteqrativ dərslik, uşaqların riyazi biliklərini artırmaqla yanaşı, onların biznes davranış mədəniyyətini formalaşdırır, fiziki, psixi və mənəvi sağlamlıqlarını qorumağı və inkişaf etdirməyi qarşıya məqsəd qoyur. 3-cü və 4-cü siniflər üçün hazırlanan "Balaca tacirlərin macəraları" dərsliyi uşaqlarda biznes mədəniyyəti, bilik və bacarıqları inkişaf etdirir, gələcək KOB-lar üçün insan resurslarının formalaşmasına töhfə verir.

## Ulu Öndərin tövsiyəsinə xidmət edən “Sağlam təhsil - Sağlam millət” yanaşması



Ulu Öndər Heydər Əliyevin “Təhsil millətin gələcəyidir” kəlamı ölkəmizdə təhsilin strateji əhəmiyyətini vurğulayan əsas fikir olaraq qalır. Təhsil millətin xoşbəxtliyini, mədəniyyətini, iqtisadi rifahını və bütövlükdə insan inkişafını ehtiva edən hər şeyin və eyni zamanda dövlətin iqtisadi, sosial, siyasi, hərbi, mənəvi və ekoloji təhlükəsizliyinin "gələcəyidir".

Bütün bu amillər bir araya gələrək, təhsilin yalnız bilik və bacarıqların deyil, həm də sağlamlıq və rifahın təmin edilməsindəki rolunu daha da mühüm edir. Ümumdünya Səhiyyə Təşkilatına görə, sağlamlıq yalnız xəstəlik və ya əlilliyin olmaması deyil, tam fiziki, əqli və sosial rifah vəziyyətidir. Buna uyğun olaraq, "Sağlam təhsil - Sağlam millət" yanaşması gələcək nəsillərin həm ümumi, həm də biznes biliklərini artırmaqla yanaşı, onların fiziki, psixi və mənəvi sağlamlıqlarını da qorumağı və inkişaf etdirməyi qarşıya məqsəd qoyur.

Azərbaycanın "2030: Sosial-İqtisadi İnkişafa dair Milli Prioritetlər" sənədində qeyd olunduğu kimi, rəqabətədavamlı insan kapitalının formalaşdırılması üçün müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı əsas şərtdir.

Ulu Öndərin "Təhsil millətin gələcəyidir" sözlərini dərk edən, "sağlam təhsil" təfəkkürünə sahib olan təhsil mühəndisinin (məmurun, idarəçinin, müəllimin) fəaliyyəti, ölkənin gələcəyinin hərtərəfli sağlam olmasına xidmət edir.



44 günlük Vətən müharibəsi zamanı Azərbaycan xalqı bir bayraq altında, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ətrafında birləşərək səfərbər oldu. Bu birliyə və səfərbərliyə əsaslanan milli ruh sülh dövründə də davam etdirilməlidir. Lakin bu səfərbərlik artıq fiziki deyil, milli-mənəvi dəyərlərin qorunması və yaşadılması üçün mədəni və mənəvi səfərbərlik kimi reallaşır. Bu yanaşma, cəmiyyətimizin "Birgə Kod" fəlsəfəsi ilə harmoniya təşkil edərək, milli-mənəvi dəyərlərin təbliğini, "mədəni immunitet"in formalaşmasını və "məsuliyyət mədəniyyəti"nin inkişafını təmin edir.



Milli dəyərlər təhsilin əsasını təşkil edərək, biznes və davranış mədəniyyətinin inkişafına da təsir göstərir. Dövlətimizin bayraq dəyərlərinə uyğun formalaşdırılan "Birgə Kod" biznesdə davranış mədəniyyətini yönləndirir və ölkənin iqtisadi inkişafına xidmət edən əsas prinsipləri əks etdirir. Bu çərçivədə milli birlik, sosial məsuliyyət və iqtisadi təfəkkürə əsaslanan davranış qaydalarının tətbiqi, Azərbaycan cəmiyyətinin mədəni və iqtisadi tərəqqisinə zəmin yaradır.



## “Sağlam təhsil” texnologiyaları



“Balaca tacirlərin macəraları” inteqrativ dərslik vəsaiti, təhsilalanlarda biznes mədəniyyətini formalaşdırmaq məqsədilə “Sağlam təhsil” texnologiyaları əsasında hazırlanmışdır. Sağlam təhsil” texnologiyaları əsasında qurulan dərslər, inteqrativ hekayə formatında, psixo-fizioloji tələblərə uyğun üç mərhələdən ibarətdir: biliklərin həkk olunması, əl işləri və nitq quruculuğu.

Dərsliyin tərtibatında kağız keyfiyyəti, şrift ölçüsü və rənglər Sağlam Təhsil texnologiyalarına uyğun olaraq, yaş kateqoriyasına müvafiq gigiyenik tələblərə əsasən seçilmişdir. Bu, uşaqların psixi-fiziki sağlamlığının qorunmasına və biliklə-rin daha effektiv şəkildə mənimsənilməsinə kömək edir.



## İnsan inkişafında multidisiplinar yanaşmanın əhəmiyyəti və zəruriliyi

İnsan inkişafındakı kompleks problemlərin həllində multidisiplinar yanaşmaya ehtiyac var. Çünki insan inkişafı çoxşaxəli, dinamik prosesdir və müxtəlif sahələrdən təsirlənir. Məsələn, **psixologiya və fiziologiya** birbaşa insanın zehni və fiziki vəziyyətini izləyir, **pedaqogika** isə təhsil və öyrənmə vasitəsilə insanın inkişafına kömək edir. **Sosiologiya**, cəmiyyətdəki davranışları və sosial əlaqələri anlamağa imkan verir, insan təcrübəsinə təsir edən sosial rollar və gözləntiləri araşdırır. **Gender** yanaşması "Bərabərlik eynilik deyil" prinsipinə əsaslanır və cinslər arasındakı bioloji fərqləri qəbul etməklə yanaşı, qızların və oğlanların bərabər imkanlarla inkişafını təmin etmək üçün onların spesifik ehtiyaclarını nəzərə alır. **Tarix və din** sahəsindəki mütəxəssislər, keçmişin və mədəniyyətin insan davranışlarına, dəyərlərinə və milli kimliyin formalaşmasına təsirini araşdırmaqda mühüm rol oynayırlar. **İnsan resursları** mütəxəssisləri isə iş yerində insan münasibətlərini və təşkilati dinamikaları idarə etməklə yanaşı, əmək mühitinin keyfiyyətini yüksəltməyə çalışırlar.







**Milli təhlükəsizlik** sahəsi isə siyasi, sosial, mənəvi, iqtisadi, hərbi və ekoloji təhlükəsizliyin təmin edilməsinə yönəlib, çünki insan inkişafı və milli təhlükəsizlik bir-birinə sıx bağlıdır və birinin vəziyyəti digərinə birbaşa təsir göstərir.




Belə bir yanaşma problemlərin həlli üçün müxtəlif sahələrin təqdim etdiyi perspektivlər arasında balans qurmağa imkan verir və bu da daha hərtərəfli və dayanıqlı həll yollarının tapılmasını təmin edir. Bu yanaşma problemləri təkcə bir aspektdən deyil, daha geniş və dərin bir prizmadan qiymətləndirərək, inkişafın hərtərəfli dəstəklənməsini mümkün edir.


***Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov***

# Valideynlərə tövsiyə

Uşaqlar gələcəyimizin ən dəyərli sərvətidir. Onların hər birinin təfəkkürünü, yaradıcılığını və həyat bacarıqlarını erkən yaşlardan düzgün istiqamətləndirmək cəmiyyətin davamlı inkişafının əsas təminatıdır. Bu məqsədlə hazırlanmış **"Balaca Tacirlərin Macəraları"** dərsliyi 5–7 yaşlı uşaqların düşünmə qabiliyyətlərini, məntiqi təfəkkürünü, davranış mədəniyyətini və sosial məsuliyyət hissini formalaşdırmaq üçün müasir pedaqoji yanaşmalara əsaslanır.

Bu dərsliyin yaradılması Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sifarişi, **Paşa Holding**-in dəstəyi və **Milli Təhsil Texnologiyaları Mərkəzi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Tibb Universiteti və İnkişaf Korporasiyası** mütəxəssislərinin birgə elmi-metodik əməkdaşlığı nəticəsində mümkün olmuşdur. Bu əməkdaşlıq yalnız bir dərsliyin deyil, uşaqların sağlam təfəkkür, sosial dəyərlər və yaradıcı bacarıqlar üzərində formalaşan yeni təlim fəlsəfəsinin təməlini qoyur.

"Balaca Tacirlərin Macəraları" dərsliyi **Sağlam Təhsil texnologiyalarına** cavab verən, uşağın həm idrak, həm də emosional inkişafını birgə stimullaşdıran inteqrativ tədris modelinə əsaslanır. Riyaziyyatın ilkin anlayışları sadə, əyləncəli hekayələr, maraqlı tapşırıqlar və həyatla bağlı situasiyalar vasitəsilə uşaqlara çatdırılır. Dərsliyin qəhrəmanları – balaca tacirlər – oxucunu həm rəqəmlər dünyasına, həm də dostluq, əməkdaşlıq, paylaşmaq və düzgün qərar vermək kimi mənəvi dəyərlərin aləminə aparır.

Bu kitabda riyaziyyat sadəcə hesab və ölçmə deyil, düşünmə tərzi, məntiq və məsuliyyətli davranışın əsasına çevrilir. Uşaqlar sadə tapşırıqlar vasitəsilə plan qurmağı, qarşısına məqsəd qoymağı, resurslardan düzgün istifadə etməyi və ən əsası – əməklərinin nəticəsini dəyərləndirməyi öyrənirlər. Hər bir bölmədə verilən davranış nümunələri və hekayələr uşaqlara gündəlik həyatla bağlı düzgün seçim etməyi, həmyaşıdları ilə mehriban münasibətlər qurmağı, paylaşmaq və yardımlaşmaq kimi sosial vərdişləri mənimsədir.

Bu dərsliyin mühüm xüsusiyyətlərindən biri də onun **inteqrativ təlim** prinsipinə əsaslanmasıdır. Riyaziyyat, ətraf mühit, sağlamlıq və davranış mədəniyyəti mövzuları arasında yaradılan məntiqi körpülər uşaqların bilikləri əlaqələndirərək bütöv bir dünyagörüş formalaşdırmasına şərait yaradır. Eyni zamanda, dərsliyin məzmunu uşağın yaş psixologiyasına uyğun tərtib olunmuş, sadə dildən, parlaq vizual təsvirlərdən və praktik fəaliyyətlərdən istifadə edilmişdir.

"Balaca Tacirlərin Macəraları" layihəsi uşaqlara yalnız öyrənməyi deyil, **öyrənməkdən zövq almağı, düşünməyi sevməyi və yaradıcı şəkildə problemləri həll etməyi** aşılayır. Burada hər bir oyun, tapşırıq və dialoq uşağın şəxsiyyətinə yönəlmiş, onun emosional rifahını və sosial bacarıqlarını gücləndirməyə xidmət edir.

Bu dərslik təkcə məktəbəqədər və ibtidai təhsil müəssisələrində deyil, həm də ailə mühitində uşaqlarla keyfiyyətli vaxt keçirmək, onların maraq dairəsini genişləndirmək üçün faydalı və maraqlı bir vasitə olacaqdır. Dərslik 4 hissədən və 87 hekayədən ibarətdir. Hər bir hekayə 4 fənnə uyğun (Azərbaycan dili, riyaziyyat, musiqi, təsviri incəsənət, həyat bilgisi, texnologiya) kiçik hissələrə ayrılmışdır. Hər hissənin sonunda əl işi və nitq quruculuğu üzrə tapşırıqlar verilmişdir. Kitabda hər hekayənin səsli formada dinlənilməsi üçün QR kod yerləşdirilmişdir.

Uşaqlarımıza daha parlaq gələcək arzulayır, bu kitabın onların düşünən, yaradıcı və məsuliyyətli vətəndaş kimi formalaşmasına töhfə verəcəyinə inanırıq.

# #BirgəKod

Mərd • Təşkilatlanan • Yaradıcı • Müdrik • Həqbilən • Ləyaqətli • Mütərəqqi • Güclü

## 6

- Fədakar
- Dürüst – C25 İntegrity
- Cəsarətli – C25 Bravery
- Mübariz
- Prinsipial – IBP Principled
- Yaxşılıqlara dəvət edən və pisliklərdən çəkindirən

## 6

- Fiziki mədəniyyətə malik-fiziki cəhətdən sağlam – IBS 36 Gross motor skills, IBS 36 Fine motor Skills
- Fiziki sağlamlığını və tətbiqi bacarıqlarını inkişaf etdirən – İBS 36 Healthy Lifestyle
- Emosional zəkalı – D10 Resilience, stress tolerance and flexibility
- Özünə əmin – İBA12 Confidence
- İradəli – C25 Persistence, C25 Self-Regulation
- Nikbin – C25 Hope, C25 Humor

## 10

- Məqsədyönlü – TMA Result Orientedness
- İntizamlı – TMA Discipline, TMA Planning and Organizing
- Müstəqil – TMA Independence
- Təşəbbüskar – TMA İnitiative
- Tədbirli – IBS36 Safety
- Əməkdaşlıq etməyi bacaran – TMA Cooperation
- Məsuliyyətli – TMA Accountability
- Lider – D10 Leadership and social influence
- Ünsiyyətcil – TMA Negotiating
- Çalışqan (əməksevər, zəhmətkeş) – C25 Vitality

## 5

- Özünü inkişaf etdirən – TMA Self Development
- Çevik uyğunlaşan – TMA Adaptability
- Geniş maraq dairəsi olan – C25 Curiosity, D10 Technology use, monitoring and control, D10 Technology design and programming
- Tələbyönümlü – TMA Customer Orientation
- Sosial mədəniyyətə malik – TMA Social Awareness

## 8

- Tədqiqatçı – D10 Active learning and learning strategies
- Problemləri kompleks həll edən – D10 Complex problem solving
- Açıq fikirli – C25 Open mindedness
- Yaradıcı təfəkkürlü – D10 Creativity, originality and initiative
- Nəzəri təfəkkürlü – D10 Reasoning, problem-solving and ideation
- Tənqidi təfəkkürlü – D10 Critical thinking and analysis
- Praktik təfəkkürlü – IBS 36 Application
- Məntiqi təfəkkürlü – D10 Analytical thinking and innovation

## 11

- Etibarlı (Güvənli, Sadiq)
- Nəcib
- Estetik mədəniyyətə malik
- Vicdanlı
- Ədalətli (Adil) – C25 Fairness
- Təvazökar – C25 Humility and Modesty
- Xeyirxah
- Səxavətli
- Mərhəmətli – C25 Kindness, C25 Forgiveness and Mercy
- Qayğıkeş – C25 Love
- Nəzakətli (xoşrəftar - etik qaydalara riayət edən) – IBS36 Code of Behaivour

## 6

- Mötədil – IBP Balanced
- Uzaqgörən – C25 Prudence, C25 Perspective
- Dəyər verən və faydalanan – İBA12 Appreciation
- Özünü qiymətləndirən – C25 Assesment and Application
- Sosial institutları (ailə, təşkilat) anlayan – TMA Organization sensitivity, TMA Political sensitivity
- Münaqişələri həll edən – TMA Conflict Management

## 18

- Rəhbərin haqqını təmin edən – K18 Sadiqlik-loyallıq
- Multikultural mədəniyyətinə loyal – İBA 12 Tolerance
- Vətənin haqqını təmin edən – C25 Citizenship
- Ekoloji mədəniyyətə malik
- Vətənə xidmət edənlərin haqqını bilən və təmin edən – K18 Sadiqlik-loyallıq
- Yaradanın haqqını təmin edən – C25 Spirtuality, C25 Gratitude, C25 Appreciation of beauty and excellence
- Hüquqi mədəniyyətə malik
- Azərbaycan dəyərlərinə malik olanların haqqını təmin edən
- Valideynin haqqını təmin edən
- Tabeçiliyində olanların haqqını təmin edən
- Həyat yoldaşının haqqını təmin edən
- Ehtiyaclıların haqqını təmin edən
- Övladın haqqını təmin edən
- Alimlərin, müəllimlərin və elmin haqqını təmin edən
- Qohumların haqqını təmin edən
- Böyüklərin və kiçiklərin haqqını təmin edən
- Qonşuların haqqını təmin edən
- Qonağın haqqını təmin edən

**Mədəniyyətimiz**
Bayrağımızın
Rənglərindədir

**Bayrağımızı**
Əməllərdə
Yaşadaq!




## 1-ci hissə

# Bilik günü

Bu gün 15 sentyabr –Bilik Günü idi. Məktəbin həyəti bəzədilmiş, şagirdlər məktəb həyətinə toplaşmışdılar. Bu il Ömər, Əli, Fatimə və Aişə də 1-ci sinfə qədəm qoyurdular. Bu gün onların həyatında ilk məktəb günü idi.

Yolda Fatimə anasına dedi:

-Ana, məktəbdə hər şeyi öyrənəcəm. Bəlkə gələcəkdə öz mağazam da olar!

Anası gülümsədi:

-Əvvəl öyrənmək, sonra qurmaq — bax budur uğurun sirri!

Bu gün uşaqlar üçün həm də yeni ideyalar günü idi. Onlar məktəbi, sinfi, müəllimi və bir-birilərini tanıyacaq, həm də ilk məsuliyyətlərini anlayacaqlar.

## Əl işi

1. Fikirlərin doğru yoxsa yanlış olduğunu müəyyən edin.

a) Məktəbin həyəti bəzədilmişdi. (**Doğru** / **Yanlış**)
b) Ömər 2-ci sinfə gedir. (**Doğru** / **Yanlış**)
c) Fatimə məktəbdə hər şeyi öyrənmək istəyir. (**Doğru** / **Yanlış**)
d) Fatimənin anası ona mağaza açmağı məsləhət görür. (**Doğru** / **Yanlış**)

2. Mətnə əsasən suallara cavab verin:

a) Hekayədə neçə uşaq 1-ci sinfə gedir? Onların adları hansılardır?
b) Fatimə anasına nə dedi?
c) Fatimənin anası ona nə dedi?

## Nitq quruculuğu

1. Ananın Fatiməyə dediyi sözlərdən nə öyrəndiniz? Sizcə, bu sözlər nə deməkdir?

2. Məktəbdə yeni dostlar tapmaq üçün nə etmək lazımdır? Siz özünüz məktəbdə necə dostlar qazanmısınız?



2-ci hissə

## Uşaqların arzusu

Leyla müəllim sinfə daxil olan uşaqları mehribanlıqla qarşıladı. İlk dərsdə o, hər kəsin özünü təqdim etməsini istədi.

Ömər dedi:

—Mən Ömərəm, böyüyəndə bir oyun qurmaq istəyirəm, uşaqlar onu telefonlarında oynasınlar!

Əli əlavə etdi:

—Mən Əliyəm, pul yığmağı sevirəm, istəyirəm öz qənaət dəftərim olsun!

Fatimə gülümsəyərək:

—Mən Fatiməyəm, əl işi hazırlayıb satmaq istəyirəm!

Aişə:

—Mən Aişəyəm, başqalarına kömək etməyi sevirəm. Bəlkə gələcəkdə kiçik bir kitabxana da aça bilərəm!

Müəllim sevindi. O dedi:

—Uşaqlar, sizin xəyal qurmağınız çox gözəldir. Amma hər şey oxumaqla, çalışmaqla başlayır. Uğurlu olmaq üçün öyrənmək şərtdir!

## Əl işi

1. Aşağıdakı cümlələrdən istifadə edərək özünüz haqqında məlumat verin.

*Mənim adım _____. Mən məktəbi _____. Məktəbdə ən çox _____fənnini sevirəm. Gələcəkdə _____ olmaq istəyirəm. Mən öz işimi qurmaq istəsəydim, _____.*

2. Müəllimin köməyi ilə verilmiş sözləri uyğun gələn yerlərdə söyləyin: ***məktəbin, siniflərini, müəllimlərini, məsuliyyətlərini***

*Bu gün şagirdlər _____ həyatinə toplaşdı. Uşaqlar _____, _____ və bir-birilərini tanıyacaqlar. Onlar həm də ilk _____ anlayacaqlar.*

3. Məktəb şəkli çəkin və rəngləyin.

## Nitq quruculuğu

1. Aişə başqalarına kömək etməyi sevir. Siz kimə necə kömək etmisiniz?

2. Siz öz xəyalınızı necə ifadə edərdiniz? Gələcəkdə nə olmaq istəyirsiniz?

3. Müəllimin sözlərindən nə öyrəndiniz? Siz uğur qazanmaq üçün nə etməlisiniz?



## 3-cü hissə

# Kiçik planlar

Dərs zamanı Leyla müəllim uşaqlara bir sual verdi: "Əgər sizin 5 manatınız olsaydı, onu necə istifadə edərdiniz?"

Ömər dedi:

—Mən boya alıb şəkil çəkərdim və onu satardım.

Əli:

—Mən pulun bir hissəsini qənaət edərdim, bir hissəsi ilə də limonad alıb dostlarıma satardım!

Fatimə:

—Mən muncuq alıb qolbaq düzəldərdim, sonra paylaşardım.

Aişə:

—Mən dostlarımla bir yerdə qərar verərdim — birlikdə plan qurardıq.

Müəllim dedi:

—Baxın, bu sizin ilk biznes planınızdır! Komanda işi, yaradıcı fikir və məsuliyyət vacibdir.

## Əl işi

1. Siz məktəbə gələndə aşağıdakı əşyalardan hansını gətirə bilərsiniz?
***Dəftər, planşet, pozan, telefon, qələm, rəngli karandaş, oyuncaq***

2. Seçdiyiniz əşyaların cəmi neçədir? Həmin əşyaların şəklini çəkin.

3. Verilmiş buludları sayın. Əlavə olaraq 2 bulud da çəksəniz buludların sayı neçə olar?



## Nitq quruculuğu

1. Ömər pulunu nə üçün boya almağa və şəkil çəkməyə sərf etmək istəyir? Siz hansı yaradıcılıq işlərini sevirsiniz?

2. Əli pulun bir hissəsini qənaət etməyi fikirləşirdi. Siz qənaət etməyi necə başa düşürsünüz?

3. Fatimənin muncuq alıb qolbaq düzəltmək planına münasibətinizi bildirin. Siz hansı əl işlərini etmək istəyirsiniz?

4. Aişənin dostları ilə birlikdə plan qurması barədə nə düşünürsünüz? Komanda işi niyə vacibdir?



4-cü hissə

# Gələcəyin sahibkarları

Dərs bitəndə uşaqlar məktəb həyətində bir-biri ilə danışır, ideyalarını bölüşürdülər.

Ömər təklif etdi:

—Gəlin, məktəbdə "fikirlər qutusu" düzəldək! Hər kəs ideyasını ora atsın.

Əli:

—Bəli! Sonra onları oxuyub seçərik, birlikdə bir layihə edərik.

Fatimə:

—Biz həm öyrənəcəyik, həm əylənəcəyik!

Aişə:

—Gələcəkdə öz işimizi qurmaq üçün bu əla başlanğıcdır.

Uşaqlar məktəbdən evə gedərkən artıq təkcə hərfləri öyrənmək yox, yaradıcı düşünmək, pulun dəyərini anlamaq, komanda ilə işləmək və xəyal qurub həyata keçirmək kimi bacarıqlar haqqında düşünürdülər.

Hekayəni səsli dinlə



## Əl işi

1. Sadə kağız, karton və rəngli materiallardan istifadə edərək "kiçik iş yeri" maketi düzəldin. (qruplarla iş)

***Nümunə: Şar və bəzək dükanı, Limonad stendi, Oyun mağazası, Kiçik kitabxana***

## Nitq quruculuğu

1. Sizcə, biznes planı nə deməkdir?

2. Siz öz fikrinizi ifadə edərkən hansı yaradıcı ideyaları paylaşa bilərsiniz?

3. Hekayədə uşaqların fikirlərini bölüşməsi sizə necə təsir etdi? Siz də fikirlərinizi rahatlıqla paylaşa bilirsiniz?

4. Bu hekayədən nə öyrəndiniz və bunu həyatda necə tətbiq edə bilərsiniz?

## Ev tapşırığı

1. Öz “biznes ideyanızı” yazın.

a) Adı nədir?
b) Nə satılır və ya nə xidmət göstərilir?
c) Kimlər üçün nəzərdə tutulub?



1-ci hissə

# Balaca Elman

Biri var idi, biri yox idi, bir ailə var idi. Ailənin beş üzvü var idi. Ata, ana, böyük bacı-Səbinə, kiçik bacı–Aysu və onların qardaşı Elman. Ailə üzvləri mehriban və işgüzar idi .

Bazar günü idi. Hamı iş başında idi. Ata sınıq kətili təmir edirdi. Böyük bacı sabahın dərslərini hazırlayırdı. Aysu şəkilli kitaba baxırdı. Ana şam yeməyi hazırlayırdı, üstəlik qoğal bişirmək üçün xəmir yoğururdu.

Elman qonaq otağında qaçır, pişiklə oynayırdı. Birdən pişik Elmanın üstünə atıldı. Elmanın əlini cırmaqladı. Elmanın əlindən qan axdı, bərk qorxdu, ağladı. Anasının yanına qaçaraq əlini göstərdi. Anası Elmanın yarasını sarıdı. Ona çay verdi.

## Əl işi

1. Uşaqlar, sizcə kətil nədir?

2. Kətil ilə stulun fərqi nədir?

3. Kətil, stul nədən hazırlanır?

4. Mətndə “şam” sözü hansı mənalarda işlənir?

5. Plastilindən qoğal yapın.

## Nitq quruculuğu

Bazar günü sizin ailə üzvləriniz nə edir?




## 2-ci hissə
# Elmanın yalanı

Elman çayını içəndən sonra anası dedi:

-Görürsən, pişiklə oynayıb əlini nə günə qoydun? Dərslərini hazırlasaydın daha yaxşı olardı.

Elman dedi:

-Bizə heç nə tapşırmayıblar.

Elə bu zaman Elmanın sinif yoldaşı Arif onlara gəldi. Onun əlində riyaziyyat kitabı var idi. Elmanın ürəyi bərk çırpınmağa başladı. Elmanın yadına düşdü ki, müəllim riyaziyyatdan xeyli tapşırıq verib. Amma istəmirdi ki, Arif bu barədə anasının yanında danışsın. Gözü ilə nə qədər işarə elədisə Arif heç nə anlamadı. O, Elmandan soruşdu ki, müəllim evə verdiyi məsələni necə həll edib? Ana bunu eşitdi. Sən demə Elman yalan danışırmış. O, tənbəllik edirmiş.

## Əl işi

1. Buraxılmış hərfləri tapıb yerinə qoyun.

***k....tab,  pi....ik, ota...., qaz....n, s....ba, qo....al, sü....rə***

2. Cümlələr düzəldin:

a) Mahnı, Aysu, oxuyur
b) Selcan, baxır, maraqlı, filmə
c) Ana, qoğal, dadlı bişirir.

3. Təqdim olunmuş mənfi və müsbət xüsusiyyətləri ifadə edən sözləri kəsib, uyğun şəkillərin altında yapışdırın:

***Dürüstlük, yalançılıq, paxıllıq, çalışqanlıq, səmimilik, xəbərçilik, tənbəllik, məsuliyyətsizlik, işgüzarlıq***

## Nitq quruculuğu

1. Sizcə, Elmanın səhvi nədir?

2. Elmana hansı məsləhəti verərdiniz?



3-cü hissə

## Arifin köməyi

Anası Elmana tərs-tərs baxdı. Elman xəcalətindən başını qaldırıb anasının üzünə baxa bilmirdi. Elə bu zaman atası otağa daxil oldu. Elman bərk qorxdu. Elə bildi ki, anası bu barədə atasına deyəcək. Ana isə ataya heç nə demədi. Üzünü Elmana tutub ciddi şəkildə dedi:

-Elman, dərslərini yerinə yetirmək üçün öz otağına get. Qoy Arif də sənə kömək etsin. Ana Arifdən soruşdu:

-Oğlum, sənin Elmanla birgə çalışmağa vaxtın varmı? Evdə nigaran qalmazlar ki?

Arif bildirdi ki, elə onun üçün buraya gəlib. Elman Ariflə birgə dərslərini hazırlamaq üçün öz otağına keçdi.

## Əl işi

1. Boşqabdakı 10 qoğaldan 1-ni Elman, 2-ni Selcan yedi. Boşqabda neçə qoğal qaldı? Məsələni şəkil çəkməklə həll edin.

2. Düzgün həll edilmiş misalları qırmızı qutuya, səhv həll edilmiş misalları yaşıl qutuya birləşdirin.



| | | |
|---|---|---|
| *4+4=10* | *10-8=2* | *3+5=9* |
| *6+2= 9* | *8+1=9* | *6+4=10* |
| *10-6=8* | *7-5=2* | *10-6=7* |

3. Ana qoğalları satmağa apardı. 10 qoğaldan 2-si satılmadı. Ana 8 manat pul qazanarsa, bir ədəd qoğalın qiyməti neçədir?

## Nitq quruculuğu

Ailə üzvlərinizin hansı xüsusiyyətləri sizin xoşunuza gəlir?



4-cü hissə

# Səhvini anlayan Elman

Arifi yola salandan sonra Elman anasına yaxınlaşıb dedi:

-Anacan, üzr istəyirəm. Mən bir də yalan danışmayacağam. Məni bağışla.

Anası onu öpüb, bağrına basdı, onu bağışladı və dedi ki, sən səhvini başa düşmüsən . Bir daha yalan danışma.

Elman anasına söz verib onu bərk-bərk qucaqladı.

## Əl işi

1. Düzgün ünsiyyət qurmaq üçün hansı sözlərdən istifadə etməliyik? Həmin sözlərdə istifadə edərək dialoq  qurun.

2. Kitab şəkli çəkin və rəngləyin.

## Nitq quruculuğu

1. Ünsiyyətə mane olan xüsusiyyətlər hansılardır?

2. Siz özünüzdə hansı xüsusiyyətin olmasını istərdiniz?

3. Çalışqan şagird necə olmalıdır?

## Ev tapşırığı

Elmanın davranışına münasibətinizi bildirin.



1-ci hissə

# Düyməcik

Biri var idi, biri yox idi. Bir Düyməcik var idi. Düyməcik balaca olsa da, hər işin öhdəsindən gələ bilirdi.
Düyməcik anasının sözünə qulaq asırdı, anasına ev işlərində yardımçı olurdu.

Ana işdə olarkən Düyməcik mətbəxdə çirkli qabları yudu, otağı səliqəyə saldı. Anası işdən gələnədək yemək masasını bəzədi. O, süfrəyə anasının sevdiyi meyvələri də qoymağı unutmadı. Düyməcik bu meyvələri öz bağlarından yığmışdı. Hətta o qədər çox yığmışdı ki, bağın qapısında da qoyub satırdı. Pulunu anasına verirdi ki, lazım olan ərzaqları alsın.

Düyməcik iş görə-görə söyləyirdi:

-Bəzəmişəm otağı,
Hər yan, gözəl, tərtəmiz.
Stol üstə salınıb
Yaraşıqlı süfrəmiz.
Ağ güldanın içinə
Çiçək düzüm rəngbərəng.
Anam işdən gələcək.

O, bilirdi ki, anası yorğun gələcək. Ona görə də o, bütün işləri görmüşdü. Bir az dincəlmək üçün əlinə bir kitab alıb oxumağa başladı.

Düyməcik kitabı oxuya-oxuya yuxulamışdı. Birdən qapı bərk-bərk döyüldü. Düyməcik çox qorxdu. Tək olduğundan qapıya sarı getməyə belə cəsarət eləmirdi.

## Əl işi

Qrup işi

**I qrup:**
1. Düyməciyin anasının ən çox sevdiyi meyvələrin şəklini adının qarşısında çəkin, rəngini, formasını, dadını müəyyən edin.

| Əşyanın adı | Forması | Dadı | Rəngi |
|---|---|---|---|
| alça | | | |
| banan | | | |
| portağal | | | |

2. Verilmiş sözlərdən hansılar mətndə var?

***Çiçək , pəncərə, qələm, ana, meyvə, kitab, Quran, süfrə.***

**II qrup:**
1. Cümlələrdə boş yerlərə uyğun gələn hərəkət bildirən sözləri yerləşdirin. Təqdim olunan şəkilləri uyğun gələn fikirlərin qarşısına yapışdırın.

***Oxuyur, süfrə bəzəyir, süzür, döyülür.***

Çay..........
Düyməcik..........
Qapı..........
Kitab..........

2. Mətndə olan fikirləri doğru və yanlış olaraq qeyd edin. Doğru cavabların qarşısında gülən emoji (☺) ,səhv cavabların qarşısında isə küsən (☹) emoji qoyun.

məktəbə getmək
yuxuya getmək
yalan danışmaq
süfrə bəzəmək
sülh bağlamaq

## Nitq quruculuğu

Bəs siz böyüklərinizə necə yardım edirsiniz? Bu haqda danışın.



2-ci hissə

## Düyməciyin anasına hədiyyəsi

Qapı doyüldükcə Düyməcik daha çox qorxurdu. Birdən qapının arxasından anasının səsini eşitdi. O, sevincək qapını açdı. Anasının üzündən öpdü, ona qulluq elədi. Düyməcik anası dincələndə onun üçün rəngli kağızlardan gül düzəltmək qərarına gəldi. O, qayçı, rəngli kağız, yapışqan karton gətirdi və işə başladı. Yenicə gülün ləçəklərini kəsmişdi ki, əlini yaraladı.

Anası oyandı. Eyvana çıxdı. Düyməciyi orada görməyib həyəcanlandı. Döşəmədə qan ləkələri görüb qızını çağırdı. Amma Düyməcik cavab vermədi. Ana qapını açıb çölə çıxdı. Elə bu vaxt qonşu Nərgiz xala da həyətə çıxdı. Düyməciyin anasına dedi ki, qorxmasın.

Qızı gül ləçəyi kəsəndə əlini kəsib. Anasını qorxutmamaq üçün Nərgiz xalagilə gedib. Anası bir az sakitləşdi. Amma hələ də Düyməciyin yarasını görməmişdi deyə tam arxayın olmamışdı.

Hekayəni səsli dinlə



## Əl işi

**I qrup:**
1. Doğru fikirlər olan cümlələrin qarşısında (+), səhv fikirlər olan cümlələrin qarşısında (-) işarəsi qoyun.
a) Düyməcik tənbəl idi.
b) Düyməcik anasını incidirdi.
c) Ana Düyməciyi çox sevir.
d) Düyməcik qayğıkeş qız idi.

2. Rəngli kağızlardan istifadə etməklə gül düzəldin.

**II qrup:**
1. Doğru fikirlər olan cümlələrin qarşısında ( + ), səhv fikirlər olan cümlələrin qarşısında ( - ) işarəsi qoyun.
a) Düyməcik mehriban qızdır.
b) Düyməcik dostlarını incidirdi.
c) O, zəhmətkeş idi.
d) Düyməcik anasını çox sevirdi.

2. Rəngli kağızlardan istifadə etməklə gül düzəldin.

**III qrup:**
1. Doğru fikirlər olan cümlələrin qarşısında( +), səhv fikirlər olan cümlələrin qarşısında (-) işarəsi qoyun.
a) Düyməcik bütün günü oyuncaqlarla oynayırdı.
b) O, anasına açıqca yazdı.
c) Kiçiklərə qayğı göstərmək lazımdır.
d) Böyüklərin sözünə qulaq asmaq lazımdır.

2. Rəngli kağızlardan istifadə etməklə gül düzəldin.

## Nitq quruculuğu

**Şifahi oyun:**
Dairəvi düzülün. Növbə ilə əvvəl deyilən sözün son hərfi ilə başlayan yeni söz deyərək oyunu davam edin.



3-cü hissə

## Düyməciyin həyəcanı

Düyməcik kartondan kəsdiyi ləçəkləri, dairəni, saplağı yapışdırdı. Onun işi lap yaxşı alınmışdı. Amma Düyməcik düzəltdiyi gülə baxıb ağlamağa başladı. Anası, Nərgiz xala Düyməcikdən niyə ağladığını soruşdular.

Düyməcik dedi: "Mənim gülümdə elə bil nəsə çatışmır ...."

Bəli, gülün yarpaqlarını lap unutmuşdu. O, yarpaqları yapışdırdı. Ana Düyməciyin hazırladığı gülə baxıb üzü güldü, yorğunluğunu unutdu.

Düyməcik tez-tez pəncərədən boylanır, atasının yolunu gözləyirdi. O istəyirdi ki, atası da gəlib onun gördüyü işlərə baxsın. O, deyirdi:

-Yollar işıqlı olsun,<br>
Günəş, hələ batma sən!...

## Əl işi

**I qrup:**
1. Misalları əşyalar üzərində modelləşdirərək həll edin:
(əşyalar-karandaşlar, say çöpləri ilə 10-lüq blok yaradaraq)

10-7 10-1
10-9 10-2
10-5 10-4
10-3 10-8 ***(Məsələni şəkil çəkməklə həll edin)***

2. Düyməciyin 10 rəngli kağızı vardı. Düyməcik kağızlardan 6-nı gül düzəltmək üçün götürdü. Düyməciyin neçə rəngli kağızı qaldı?
3. Rəngli kağızlardan istifadə etməklə gül düzəldin.

**II qrup:**
1. Misalları əşyalar üzərində modelləşdirərək həll edin: (əşyalar karandaşlar, say çöpləri ilə onluq blok yaradaraq)

10-8 10-6 10-9
10-7 10-2 10-1
10-4 10-3 10-5 ***(Məsələni şəkil çəkməklə həll edin)***

2. Düyməciyin 11 rəngli karandaşı var. O, karandaşlardan 5 –ni rəfiqəsinə verdi. Düyməciyin neçə karandaşı qaldı?
3. Rəngli kağızlardan istifadə etməklə gül düzəldin.

**III qrup:**
1. Misalları əşyalar üzərində modelləşdirərək həll edin: (əşyalar karandaşlar,say çöpləri ilə onluq blok yaradaraq)

10-1 10-4 10-2
10-5 10-6 10-7
10-9 10-8 10-3 ***(Məsələni şəkil çəkməklə həll edin)***

2. Ana Düyməciyə 7 dəftər aldı. O, dəftərlərin 2-ni istifadə etdi. Düyməciyin neçə dəftəri qaldı?
3. Rəngli kağızlardan istifadə etməklə gül düzəldin.

## Nitq quruculuğu

Günəşin faydası haqqında danışın.




## 4-cü hissə

# Günəşin dostluğu

Düyməcik Günəşlə dost idi. O, Günəşə dedi:

-Əzizim Günəş, bilirəm sübhdən oyaqsan, yorğunsan! Sən də mənimtək işləmisən, yorulmusan. Mən səni də çox istəyirəm! Sənin parlaq, təbəssüm saçan şüalarını səhər görməyəndə darıxıram. Zəhmət olmasa, bir az gözlə, atam da işdən gəlsin, sonra batarsan. Sonra Düyməcik saata üz tutdu:

-Dostum saat, sən də bir azca tələs, lap darıxdım atam üçün. Atam işdən gələcək və mənə deyəcək: “Mənim qayğıkeş və mehriban qızım, sənin üçün çox darıxdım!”

Axşam Düyməciyin atası işdən gəldi. Ailə Düyməciyin hazırladığı süfrə başında şam elədi. Ata da, ana da Düyməciyə təşəkkür etdilər.

## Əl işi

Qrup işi

**I qrup:**
1. Plastilindən və ya rəngli kağızlardan günəş fiquru hazırlayın.

**II qrup:**
1. Verilmiş rəsmi tamamlayın. Güldanın üzərinə naxışlar çəkin, güllər təsvir edin.

**III qrup:**
1. Günəşin şəklini çəkin.

## Nitq quruculuğu

Qrup işlərini təqdim edin.

## Ev tapşırığı

“Mən anama ev işlərində necə kömək edirəm” adlı kiçik mətn qurun.



1-ci hissə

# Oyuncaq mağazası

Yolun qırağında bir oyuncaq mağazası var idi. Mağazada çoxlu rəngarəng oyuncaqlar satılırdı. Uşaqlar bu mağazanın qarşısında dayanaraq oyuncaqlara baxmağı xoşlayırdılar. Oyuncaq mağazasının rəfində bir sarışın gəlincik oturmuşdu. Bir gün mağazaya bir kişi ilə balaca bir qız daxil oldu. Gəlincik maraqla qıza baxdı. Qızın da gözü gəlincikdə idi. Nəhayət, o, atasının qulağına nə isə pıçıldadı. Atasının cavabını gəlincik də eşitdi:

-Gülər, görürəm bu oyuncağı çox bəyənmisən. Sabah sənin ad günündür. Söz verirəm ki, bir yerdə gəlib onu alarıq.

Hər şey başqa cür oldu. Günorta mağazaya ucaboylu bir qadın gəldi. O gəlinciyi rəngli kağıza bükdürüb evinə apardı.

Səhəri gün atası ilə oyuncaq dükanına gedən Gülər çox sevinirdi. Amma gəlinciyin satıldığını eşidəndə kefi pozuldu

Hekayəni səsli dinlə



## Əl işi

1. Sizə ad günündə hədiyyələr veriləndə siz hansı nitq etiketlərindən istifadə edirsiniz?

2. Mağazanın rəfi üçün plastilindən oyuncaqlar düzəldin.

## Nitq quruculuğu

1. Sizcə Gülər atasına nə dedi?

2. Ad gününüzdə hansı oyuncağın sizə bağışlanmağını istərdiniz?



2-ci hissə

# Gülərin ad günü

Axşam hamı Güləri təbrik edirdi. Gülər isə çox həvəssiz və könülsüz idi. O çox məyus görünürdü. Bütün fikri gəlinciyin yanında idi. Qonaqların gətirdikləri hədiyyələrə heç gözünün ucu ilə də baxmırdı. Qonaqlar hamısı ona “..........” deyib, hədiyyələr verirdilər. O hədiyyələri alıb masanın üstünə qoyurdu.

Ana tortu masaya gətirdi. Tortun üzərinə şam və fişəng qoymuşdu. Ana şamları və fişəngləri yandırdı. Hamı Ad günün mübarək mahnısını oxuyurdu. Gülər tortun üstündəki şamları da çox həvəssiz üfürdü. Qonaqlar isə tortla çay içib dağılışdılar.

## Əl işi

1. Mətndə boş xanaya hansı ifadə uyğun gəlir?

2. Öz dostunuza “Ad günü" münasibətilə açıqca hazırlayın.

3. Sinif yoldaşlarınızla birlikdə satış üçün oyuncaqlar hazırlayın.

## Nitq quruculuğu

Oyuncaq mağazanız olarsa , müştəri cəlb etmək üçün hansı addımları atardınız?



3-cü hissə

## Gülərin gəlinciyi

Qonaqlar gedəndən sonra Gülər tortun üzərindəki şamları saydı. Ana tortun üzərinə 4 şam və bundan 2 dənə çox fişəng qoymuşdu. Gülər bu şamları necə üfürdüyünü də xatırlamırdı.

Sonra Gülər hədiyyələr olan masaya yaxınlaşıb könülsüz halda hədiyyələrə baxdı. O, öz–özünə düşündü: “Kaş əlimdə sehrli çubuq olaydı. Onunla qutuların birinə toxunaydım. İçindəki oyuncaqlar gəlinciyə çevriləydi”. Bu fikirlə Gülər özü də bilmədən üstdəki qutuya toxundu. Qutunun qapağı açıldı. İçəridən mağazada gördüyü gəlincik Gülərin üzünə güldü.

Sən demə həmin qadın Gülərin xalası imiş. Gəlinciyi onun ad gününə hədiyyə alıbmış.

Hekayəni səsli dinlə



## Əl işi

1. Ana tortun üzərinə 1 fişəng və bundan 3 dənə çox şam qoymuşdu. Ana tortun üzərinə neçə şam qoymuşdu?

2. Ad günündə Nəzrin 4 qızılgül, Zeynəb isə bundan 2 dənə çox zanbaq gətirmişdi.

a) Gülərə cəmi neçə gül gətirmişdilər?
b) Zanbaqların sayı qızılgüllərin sayından nə qədər çoxdur?
c) Hər kəs xəyalındakı tortun və güllərin şəklini və üzərinə öz yaşının sayı qədər şam şəkli çəksin.

## Nitq quruculuğu

Ən gözəl ad günü hədiyyəniz haqqında danışın.



4-cü hissə

# İşıqfor

O gün Gülər atası ilə oyuncaq mağazasından çıxıb evə gələndə o qədər fikirli idi ki, işıqfora fikir verməmişdi. Polis Gülərə işıqforu göstərib dedi:

-Qızım, işıqfordakı lampaların rəngi nəyi ifadə edir?

Polis Gülərə işıqfor haqqında məlumat verir: İşıqfor 2 cür olur. Üç və ikirəngli. Üçrəngli işıqfor nəqliyyat, ikirəngli işıqfor isə piyadalar üçündür.

Gülər və atası polislə sağollaşıb yollarına davam etdilər. Ata da Gülərə işıqfor haqqında məlumat verdi:

-İşıqforu səkilərdə, piyada keçidlərində, hərəkət çox olan yerlərdə qoyurlar. İşıqforun rəngli işıqları qəzaların qarşısını almağa kömək edir. Yol polisi yol hərəkət qaydalarına nəzarət edir. Küçədə və səkilərdə hərəkət edən insanlara piyada deyirlər. Səki piyadaların hərəkəti üçün yoldur. Şose yolu isə avtomobillər üçündür.

Məktəbdə müəllim Həyat bilgisi dərsində yol hərəkəti qaydaları haqqında məlumat verəndə Gülər müəllimin bütün suallarına düzgün cavab verdi.

## Əl işi

1. Plastilindən piyadalar və maşınlar üçün işıqfor hazırlayın.

## Nitq quruculuğu

1. Yol hərəkəti qaydalarını pozmaq nə ilə nəticələnə bilər?
2. Nə üçün bəzi işıqforlarda iki, bəzilərində isə üç rəngdə işıq var?
3. İşıqfor olmasa yollarda nə baş verər?



1-ci hissə

## Küsən kitab

Biri var idi biri yox idi. Süsən adlı bir qız var idi. Süsən tənbəl qız idi. Hər dəfə dərs oxumaq zamanı gələndə bir bəhanə tapırdı. Anası onu həyətdən çağırdı və dedi:

-Bəsdir, oynadın! Otur dərslərini oxu!

Süsən istəməyərəkdən otağına çəkildi. Kitabını açıb oxumaq istədi. Ancaq dərsini oxuya bilmədi. Kitabı anasına göstərib dedi:

-Ana axı mən dərsimi oxuya bilmirəm. Kitabdakı cümlələr heç oxunmur. Vərəqlər cırıq-cırıqdır. İndi mən neyləyim, dərslərimi necə oxuyum?

Ana kitabı Süsənin əlindən alıb baxdı. Gördü ki, kitab çox yararsız hala salınıb. Kitabın vərəqlərinə Süsən şəkillər çəkib. Vərəqlərdəki yazılar heç oxunmur. Vərəqlərdə, yazıların üzərində ev, inək, təkər şəkli çəkib.

## Əl işi

**Fərdi iş:**

1. Sevimli kitabınızın şəklini çəkin.

2. Mətndən 3 söz seçib hecalara ayırın.

## Nitq quruculuğu

Şəklini çəkdiyiniz kitabı nə üçün sevirsiniz? Bu haqda danışın.




2-ci hissə

# Sevil küsüb

Ana kitabı vərəqləyib dedi:

-Qızım, kitabı niyə bu hala salmısan? Sən bilmirsən ki, səndən sonra bu kitabı başqa uşaqlar oxuyacaq? Ona görə də kitab səndən küsüb, səninlə danışmır. Bilirsən,qızım,sən kitaba nə qədər qayğı və sevgi ilə yanaşsan o da sənə bir o qədər elm verər. İndi sənə bir şeir oxuyacağam, bu şeir sənə çox şeyi izah edəcək.

***İ .Tapdığın "Sevil küsüb" şeiri:***

Sevil küsüb Gülərdən
Gülər qoymayıb üzsün
Sahildəki güllərdən
Sevil küsüb Səftərdən
Səftər qoymayıb onu
Vərəq cırsın dəftərdən.

## Əl işi

Qrup işi

**I qrup:**
1. Verilmiş sözlərdən cümlə düzəldin.
***yazmaq, səhifələr, olmaz, kitab.***

2. Kartondan kitab düzəldin.

**II qrup:**
1. Verilmiş sözlərdən cümlə düzəldin.
***çəkmək, səhifələr, olmaz, kitab, şəkil.***

2. Kartondan kitab düzəldin.

**III qrup:**
1. Verilmiş sözlərdən cümlə düzəldin.
***bilik, mənbə kitab.***

2. Kartondan kitab düzəldin.

**IV qrup:**
1. Verilmiş sözlərdən cümlə düzəldin.
***biz, vermək, bilik , kitablar.***

2. Kartondan kitab düzəldin

## Nitq quruculuğu

Təsəvvür edin ki, kitab dilə gəlib Süsənə öz etirazını bildirir. Sizcə, o Süsənə nə deyərdi?




3-cü hissə

# Metroda

Süsən səhvini anlayıb başını aşağı saldı. Anasına söz verdi ki, bir daha kitabı yazmayacaq. Ana dedi:

-Süsən əynini geyin, gedək kitab alaq!

Süsən tez paltarını geyinib hazır oldu. Onlar küçəyə çıxdılar. Dayanacaqda dayanıb avtobus gözləyirdilər. Bu vaxt sinif yoldaşı Anar velosipedlə onlara yaxınlaşdı.

Süsəndən soruşdu:

-Süsən hara gedirsən?

-Kitab almağa.

-Nə ilə gedirsən?

-Avtobusla.

-Metro ilə getsən daha tez çatarsan.

Ana dedi:

-Süsən, Anar düz deyir. Gəl, metro ilə gedək.

Onlar metroya girdilər. Kitabı alıb avtobusla geri qayıtdılar.

## Əl işi

Qrup işi

**I qrup:**
1. Qatar şəkli çəkin.
2. Qatarın 10 vaqonu var. 4-nü çıxartdılar. Neçə vaqon qaldı?

**II qrup:**
1. Avtomobil şəkli çəkin.
2. Avtobusda 10 sərnişin var idi. Dayanacaqda 3 nəfər endi. Neçə sərnişin qaldı?

**III qrup:**
1. Təyyarə şəkli çəkin.
2. Təyyarədə 10 sərnişin uçur. Onlardan 7-si qadın, qalanları kişidir. Təyyarədə neçə kişi sərnişin var?

**IV qrup:**
1. Gəmi şəkli çəkin.
2. Gəmidə 3 matros, 1 kapitan, 6 sərnişin var. Gəmidə cəmi neçə nəfər var?

## Nitq quruculuğu

**Müzakirə sualı:**

Nəqliyyat insana nə üçün lazımdır?



4-cü hissə

# Musiqi kitabı

Süsənlə anası kitab alıb evlərinə qayıtdılar. Süsən artıq bütün kitablarla dost olmuşdu. O evə çatan kimi aldığı kitabları oxumağa başladı. Sonra aldığı ləvazimatlardan şəkilli kitablar hazırladı.

Hazırladığı kitablar o qədər maraqlı idi ki, onları məktəbdə satmağa apardı. Puluna isə imkansız uşaqlara məktəb ləvazimatları alıb verirdi. Bütün sinif yoldaşları bu işdə ona köməklik edirdi.

O, musiqi kitabını açıb kitab haqqında mahnı axtardı. Lakin tapa bilməyib B.Vahabzadənin “Kitab” şerinə musiqi bəstələdi və oxumağa başladı. Mahnının ritminə görə hərəkətlər edirdi.

Artıq Süsən kitabları cırmır, yazmır, onlarla mehriban rəftar edir və dərslərini yaxşı oxuyurdu.

Hekayəni səsli dinlə



## Əl işi

Otaqda olan müxtəlif musiqi alətləri ilə tempə uyğun hərəkətlər edin.

## Nitq quruculuğu

"Kitab" mahnısını xorla oxuyun.



1-ci hissə

# Vətənimiz

Bu əhvalat bizim yaşadığımız ölkədə, yəni Azərbaycanda baş vermişdi. Dostlar, gəlin gözəl vətənimizin seyrinə çıxaq. Vətənimiz Azərbaycanın hər guşəsi, hər qarış torpağı dəyərlidir.

Azərbaycan adlı diyar həm təbiətin gözəllikləri ilə, həm də insanların gözəllikləri ilə seçilir. Burda yaşayan insanlar öz qonaqpərvərliyi, qayğıkeşliyi və mehribanlığı ilə seçilir. Gözəl ailələrin birində Nərgiz adlı balaca bir qız yaşayırdı. Nərgiz çox ağıllı, bacarıqlı uşaqdır. Onun çoxlu oyuncaqları var. Bir gün Nərgiz ailəsi ilə istirahətə ölkəmizin dilbər guşəsi olan Qubaya gedir.

Hekayəni səsli dinlə



## Əl işi

1. Verilmiş xəritəni Azərbaycan bayrağının rənglərinə uyğun rəngləyin.

2. Mətndən çətin sözləri seçib tələffüz edin.

## Nitq quruculuğu

**Aşağıdakı suallara cavab verin:**

1. Siz vətəninizi nə üçün sevirsiniz?

2. Dədə-baba yurdunuz haradır?

3. Azərbaycanın hansı bölgələrini tanıyırsınız?

4. İndi sizin yaşadığınız yer necə adlanır?



## 2-ci hissə
# İstirahətdə

Nərgizgil əvvəlcə Qubada qaldılar. Nərgizin burda ən çox alma bağları xoşunagəldi. O qədər gözəl almalar var idi ki, insan yedikcə yemək istəyirdi. Nərgiz bağbandan soruşdu:

-Bu qədər almanı nə edirsiz?

Bağban gülümsəyərək cavab verdi:

-Bunlar yığılır, bazara aparılıb, satılır, zavodda cem hazırlanır, mürəbbə bişirilir.

Sonra Nərgizgil Göyçaya getdilər. Burada 3 gün qaldılar. Göyçay Nərgizi bir başqa valeh etdi. Dadı və ləzzəti ilə məşhur olan Göyçay narını ağacdan dərmək çox maraqlı idi. Nərgiz burada öyrəndi ki, narı da bazarda satırlar, ondan da narşərab hazırlayırlar.

## Əl işi

**Fərdi iş:**

1. Verilən simvolları davam edin.

/ / /

\ \ \

2. Rəngli kağızdan alma düzəldin.

## Nitq quruculuğu

Öz yaşadığınız yer haqqında danışın.



3-cü hissə

## Məktəbdə ilk gün

Nərgizgilin istirahəti bitdi. Evə qayıtdılar. Nərgizin altı yaşı olduğu üçün o, bu il məktəbə gedəcəkdi.

Artıq sentyabrın 15–dir. Ana çox sevinirdi. Amma Nərgiz heç yatağından durmaq istəmirdi.

-Ana, məkəbə getmək istəmirəm. Yatmaq istəyirəm, oyuncaqlarımla oynamaq istəyirəm.

Ana əzizləyə-əzizləyə qızını yuxudan qaldırdı. Nərgizi geyindirdi, saçlarına ağ lentlər bagladı. Valideynləri onu məktəbə gətirdilər. Məktəbin həyətində çoxlu uşaqlar var idi. Nərgiz onları görüb sevindi. Atası ona dedi ki, bu uşaqlar sənin dostların olacaq. Nərgiz uşaqları saymağa başladı.

## Əl işi

Qrup işi

**Oğlanlar qrupu:**
1. Oğlanların məktəbli forması geyiminin cizgilərini rəngləyin.
2. Verilmiş ədədləri 1 vahid artırıb yazın: 2, 4, 5, 6, 7, 8,

**Qızlar qrupu:**
1. Qızların məktəbli forması geyiminin cizgiləri rəngləyin.
2. Verilmiş ədədləri 1 vahid artırıb yazın: 1, 3, 4, 6, 5, 9,

***Müəllim şagirdləri düzgün karandaşlar seçməsinə nəzarət edir.***

## Nitq quruculuğu

Şagirdlərin təqdimatları dinlənilir.



4-cü hissə

# Sinifdə

Nərgiz anasının əlindən bərk-bərk yapışmışdı. Məktəbdəki müəllimlər, məktəbin direktoru uşaqları salamladı. Onlara gözəl oxumağı, çalışqan şagird olmağı arzuladı. Nərgiz anasına qısılıb kövrəldi. O, yeni-yeni sözlər eşidirdi. Şagird sözü Nərgizi lap marağa saldı. Bu zaman sevimli, mehriban bir qadın uşaqlara yanaşıb dedi: "Uşaqlar, mən sizin müəlliminizəm. Gəlin, öz otağımıza gedək".

Müəllim uşaqları sinif otağına apardı. Sinif otağı çox gözəl idi. Nərgiz ətrafa maraqla baxırdı. Müəllim sinif qaydaları ilə uşaqları tanış etdi. Uşaqlar iki-iki sıraya düzülür. Müəllim uşaqları məktəbin idman zalı, musiqi otağı, kompüter otağı, məktəbin akt zalı, kitabxanası, bufeti və digər lazımlı yerləri ilə tanış edir. Müəllim hər bir otağın nə üçün istifadə olunduğu haqqında məlumatlar verir, məktəbin giriş və çıxışını göstərir.

Hekayəni səsli dinlə



## Əl işi

Kartondan məktəb maketi hazırlayın.

## Nitq quruculuğu

**Sualları cavalandırın:**

1. Məktəbdə hansı otaqlarla tanış oldunuz?
2. Uşaqlar, məktəb xoşunuza gəldimi?
3. Məktəbə nə üçün gəlirlər?
4. Kitablarla necə davranmaq lazımdır?
5. Məktəbli paltarını necə saxlamaq lazımdır?
6. Müəllimə necə müraciət etmək lazımdır?
7. Dərsə gecikmək olarmı?




1-ci hissə

# Alma ağacının nağılı

Sizə kimdən deyim, kimdən danışım, balaca Ayxandan. Ayxanın babasının bağ evi şəhərin kənarında yerləşirdi. Fevral ayının son günləri idi. Ayxanının babası bağda alma ağacları əkmək istəyirdi. O yaxşı bağban idi.

Ayxan Aliyə nənənin və Azər babanın ən sevimli nəvəsi idi. O tez-tez nənə və babasına baş çəkir və onlara qayğı göstərirdi. Bağ evlərində onların Alagöz adlı bir iti də var idi. Alagöz ala-bula rəngdə idi. Ayxan babasına bağda alma ağacları əkməyə kömək edirdi. Babası ona ağac əkmək yollarını izah edirdi. Ayxan maraqla ona qulaq asır və nə etdiyinə tamaşa edirdi. Hərdən kiçik belini götürüb torpağı da belləyirdi.

Ayxan babasından soruşdu:

-Biz bu almaları nə edəcəyik?

Baba dedi:

-Ağıllı balam, bu almaları bazarda satıb lazım olan əşyaları alacayıq.

Ayxan dedi:

-Baba, mən də alma satmağa gedə bilərəm?

-Əlbəttə. Amma indi ağacları əkməliyik.

Ayxan torpağı bellədikcə iri qurdları görüb qorxdu. Babası ona qurdların qorxulu olmadığını izah etdi. Baba dedi ki, bu qurdlar onlara balıq tutmaq üçün lazım olacaq. Balıqlar suda bu qurdlara tərəf gələndə tora düşəcəklər.

## Əl işi

Qrup işi

**I qrup:**
1. Rəngli kağız üzərində kiçik qurd şəkilləri çəkin.
2. Verilmiş hecaları birləşdirib sözlər yaradın.

***Al xan ba Ay ma lıq***

**II qrup:**
1. Plastilindən kiçik qurdlar hazırlayın.
2. Verilmiş hecaları birləşdirib sözlər yaradın.

***tor ğac la ta a paq***

**III qrup:**
1. Plastilindən alma hazırlayın.
2. Verilmiş hecaları birləşdirib sözlər yaradın.

***Ala a la Ali göz yə***

**IV qrup:**
1. Rəngli kağızlardan alma ağacı hazırlayın.
2. Verilmiş hecaları birləşdirib sözlər yaradın.

***fev ba ban bağ ral ba***

## Nitq quruculuğu

**Şifahi oyun:**
Dairəvi düzülün. Növbə ilə əvvəl deyilən sözün son hərfi ilə başlayan yeni söz deyərək oyunu davam edin.




## 2-ci hissə

# İldırım çaxması

Aprel ayının son həftəsi idi. Ayxan babasıgilə gəlmişdi, Ayxan baba və nənəsinin yanına qaçıb, alma ağaclarına baş çəkməyi xahiş etdi.

-Baba, bilirsən mən necə həsrətlə bu ağacların böyüməyini gözləmişəm. Gedək, onlara baxaq. Baba və nəvə birlikdə bağa baş çəkdilər. Ağaclar elə bil Ayxanın sevinməsi üçün tez böyümüşdülər. Alagöz də onların yanında idi. Birdən hava tutuldu.

Alagöz tullanmağa başladı. Ayxan dedi: - Baba, hava niyə tutuldu?

Baba bu ayda havaların tez-tez tutulduğunu bildirdi. Amma hardansa elə bil gurultu və güclü bir işıq gəldi. Ayxan nənəsinin üstünə qaçdı. Göydən leysan yağmağa başladı. Nənə dedi: -Qorxma, mənim ağıllı balam, bu ildırımdır! İldırım çaxanda ağacın altında durmazlar. Ayxan özündən çox alma ağaclarını fikirləşirdi, elə bilirdi ki, ildırım onları da vuracaq.

Axşam nənəsi ona təsəlli verdi ki, ağaclara heç nə olmayıb, əksinə bol su içiblər.

## Əl işi

Qrup işi

**I qrup:**
1. Plastilindən tərkibində "A" hərfi olan əşyaları düzəldin.
2. Sözləri cümlədə işlədin: ***araba, tac, ata, balıq, baba.***

**II qrup:**
1. Adlarında “a” hərfi olan əşyaların applikasiyalarını düzəldin.
2. Sözləri cümlədə işlədin: ***saat, papaq, ana, tala, kitab.***

**III qrup:**
1. "Təbiətdə ildırım çaxması" rəsmini çəkib rəngləyin.
2. Sözləri cümlədə işlədin: ***ağac, albalı, qanad, alma.***

Üç qrupla birlikdə iş: "A" hərfinə aid sözləri cədvələ uyğun deyin.

| Sözün əvvəlində | Sözün ortasında | Sözün sonunda |
|---|---|---|
| Alma<br>..... | Balıq<br>..... | Baba<br>..... |

## Nitq quruculuğu

İldırım çaxması haqqında hadisəni ardıcıl danışın.




3-cü hissə

# Alma yığımı

Artıq yay tətili idi. Avqust ayında Ayxan almaların yetişməsini gözləyirdi. Hər gün gedib onlara baxırdı. Ayxan almaları yığmaq istəmirdi. Elə bilirdi ki, ağac ondan küsəcək.

Amma babası ona başa saldı ki, ağacın bəhrəsini yığmasaq, gələn il bundan az alma gətirəcək. Almaları toplayıb nənəsinə gətirdi. Nənə almaları yeşiklərə yığıb, bazarda satmağa hazırladı. Ayxan soruşdu:

-Nənə, 1 kq almanı neçə manata satacağıq?

Nənə gülümsəyərək dedi:

-Bazar qiymətinə, yəni 1 manata.

-Ay nənə, 10 kq alma satsaq nə qədər pul edəcək?

Nənə dedi:

-Əziz nəvəm, bunu birlikdə hesablayarıq.

Hekayəni səsli dinlə



## Əl işi

1. Toplama əməllərini hesablayın.

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| *1+ 3* | *1+4* | *6+1* | *7+1* | *1+6* | *4+4* | *2+7* | *4+1* |
| *2+3* | *2+1* | *3+5* | *2+4* | *2+5* | *1+7* | *3+3* | *2+2* |

2. Misalların cavablarını tapmaqla alma şəkillərini rəngləyin.

3. Sol tərəfdəki ağacın üstündəki almaları qırmızı, sağ tərəfdəki ağacın üstündəki almaları sarı rəngləyin. Qırmızı almaların sayı sarı almaların sayından nə qədər çoxdur?

## Nitq quruculuğu

Ad və əlamət bildirən sözlərdən istifadə edərək cümlələr düzəldin.

| | |
|---|---|
| ***dadlı*** | ***avqust*** |
| ***isti*** | ***ağac*** |
| ***yaşıl*** | ***alma*** |
| ***canlı*** | ***heyvan*** |




4-cü hissə

## Almanın faydası

Axşam nənəsi almalardan Ayxana şirə çəkdi. Aliyə nənə alma şirəsində çoxlu vitamin olduğunu söylədi. Alma həm dadlı, həm də çox faydalı meyvədir. Qədimdən bəri “Gündə bir alma həkimi evdən uzaq saxlayar” deyimi bu meyvənin sağlamlığa təsirini vurğulamaq üçün istifadə olunur.

Alma C vitamini ilə zəngin olduğu üçün dəri hüceyrələrinin yenilənməsinə kömək edir, dərini parlaq və sağlam saxlayır.

Ayxan alma ağacının faydasını anladı və məktəbdə ağaclara qulluq etmək haqqında hekayə danışacağına söz verdi.

## Əl işi

Qrup işi

**I qrup:**
1. Plastilindən alma düzəldin.
2. Sözlərdən cümlə düzəldin: ***C vitamini, zəngindir, alma, ilə***

**II qrup:**
1. Plastilindən alma ağacı düzəldin.
2. Sözlərdən cümlə düzəldin: ***meyvədir, və, alma, faydalı, dadlı***

**III qrup:**
1. Verilmiş alma şəklini rəngləyin.
2. Sözlərdən cümlə düzəldin: ***əkdi, alma , baba, ağacı***

**IV qrup:**
1. Alma şəklini yapma yolu ilə düzəldin.
2. Sözlərdən cümlə düzəldin: ***babasına, Ayxan, kömək etdi***

## Nitq quruculuğu

***Alabaş, ağac, ayaq, papaq, alma, paltar, kitab.***

Verilmiş sözlərdən istifadə edərək cümlələr qurun.



## 1-ci hissə

# Nurlanın çətinliyi

Nurlanın altı yaşı var idi. Onun yaşadığı kəndin kənarında bir meşə var idi. Həmin meşəyə tez-tez gəzinti etməyi çox sevirdi. Nailə nənəsindən öyrəndiyi dərman bitkilərini meşədən toplayıb evə gətirir, nənəsi də onları qurudub qışa saxlayırdı. Meşədə nanə, yarpız, kəklikotu, itburnu, çaytikanı kimi dərman bitkiləri bitirdi. Öz məhəllələrində yaşıllıq az olduğundan həmişə düşünürdü ki, çoxlu ağac alıb burada əkmək olar.

Bir gün Nurlan dostları Nadir və Aydın ilə qərara gəldilər ki, dərman bitkilərini toplayaraq məhəllədə yarmarka təşkil etsinlər. Yarmarkada bitkilər haqqında ətraflı məlumat verməli, adlarını yazıb stenddə nümayiş etdirməli idilər. Ancaq bir problem var idi. Nurlan bəzi hərfləri, o cümlədən “N” hərfini yaza bilmirdi.

Hekayəni səsli dinlə



## Əl işi

1. Tərkibində "N" səsi olan sözlər tapın.

2. Plastilindən "N" hərfi düzəldin.

## Nitq quruculuğu

1. Yarmarkanın təşkili zamanı uşaqlara hansı təklifləri verərdiniz?

2. Tərkibində "N" səsi olan dərman bitkiləri haqqında təqdimat hazırlayın.




2-ci hissə

# Məktəbdə

Səhər açıldı. Xoruzların səsi kənd camaatını yuxudan oyatdı. Nurlan da hazırlaşıb dostları ilə birlikdə məktəbə yollandılar. Onlar həm də eyni sinifdə oxuyurdular. Dostlar yolda düşündülər ki, yarmarkada bitkilərin adlarını yazmaq üçün Nəcibə müəllimdən kömək istəsinlər. Onlar məktəbə çatdılar.

Zəng vuruldu. Nəcibə müəllim əlində bitki dəstəsi  ilə sinfə daxil oldu. Uşaqlar maraqla bitkiyə baxırdılar. Nurlan bitkini görən kimi tanıdı, “Bu ki nanədir” deyə yerindən irəli atıldı.

Bəli, bu nanə idi, müəllim bu gün “N” hərfini keçəcəyi üçün dərman bitkisi sayılan nanə haqqında da məlumat verəcəkdi.

## Əl işi

1. Dəftərdə “N” hərfini hüsnxət normalarına uyğun yazın.

2. Tərkibində “n” hərfi olan sözlər düşünərək yazın.

## Nitq quruculuğu

1. Nanə bitkisi haqqında nə bilirsiniz?

2. Siz hansı sahə üzrə yarmarka təşkil etmək istəyərsiniz? Fikrinizi əsaslandırın.




3-cü hissə

# Çətinliklərin həlli

Dostlar çox sevincli idilər. Çünki onlar artıq yarmarkanın təşkili üçün müəllimdən yardım istəmişdilər. Müəllim də kömək edəcəyinə söz vermişdi. Həmçinin bitkilərin adlarını yazmaq üçün "N" hərfini də öyrənmişdilər.

Dostlar məktəbdən gələndən sonra danışdıqları vaxtda meşəyə yollandılar. Nurlan 4 dəstə nanə, 5 dəstə kəklikotu yığdı. Aydın 4 dəstə yarpız, 3 dəstə nanə yığdı. Nadir isə 5 dəstə çaytikanı yığdı. Uşaqlar həvəslə yığdıqları bitkiləri səbətə qoyaraq meşədən məhəlləyə doğru yola düşdülər.

Yarmarka üçün hazırlıqlara başladılar. Müəllimin dəstəyi ilə bitkilərin adlarını və istifadə qaydalarını yazdılar. Həmçinin yarmarkada bu bitkilərin satışı üçün qiymət kağızları da hazırladılar.

## Əl işi

1. Nanə bitkisindən neçə dəstə yığdılar?

2. Nanə bitkisi yarpızdan neçə dəstə çoxdur?

3. Mətndə adı çəkilən dərman bitkilərindən hansını uşaqlar yığmadılar?

4. Hər uşaq ayrılıqda neçə dəstə dərman bitkisi yığmışdı?

## Nitq quruculuğu

Toplanmış bitkilərə uyğun məsələ qurun.




## 4-cü hissə
# Uğurlu gün

Səhər tezdən dostlar məhəllədə görüşdülər. Yarmarka haqqında hər kəsə məlumat verdilər. Nəhayət, dostlar stendin arxasına keçərək həvəslə bitkilər haqqında məlumat verir, onların istifadə qaydalarını izah edirdilər. Hər kəs uşaqları diqqətlə dinləyir, lazım olan bitkilərdən alırdılar.

Beləliklə, yarmarka uğurlu keçdi. Dostlar qazandıqları pulla çoxlu ağac aldılar. Valideynlərinin köməyi ilə ağacları öz məhəllələrində əkdilər. Hər kəs uşaqların bu işindən çox razı qaldı.

Hekayəni səsli dinlə



## Əl işi

Sevdiyiniz gül və ya bitkilərdən herbari hazırlayın.

## Nitq quruculuğu

1. Bəs sizin evdə xəstələnəndə hansı dərman bitkisindən istifadə edirlər?

2. Dərman bitkiləri haqqında araşdırma aparın.



1-ci hissə

## Əsmərin arzusu

Uzaq şəhərlərdən birində Əsmər adında balaca bir qız yaşayırdı. Əsmər çox ağıllı qız idi. Bu gün onun ad günü idi. Əsmərin böyük arzuları var idi. Hətta o deyirdi ki, onun arzularını pulla almaq olmaz. Nənəsi və əmisigil onlara qonaq gələcəkdi. Əmisi ona gözəl bir danışan gəlincik alacaqdı. Nənəsi də ona qışda geyinmək üçün əlcək toxumuşdu.

Əsmər mətbəxdə axşam üçün gözəl yeməklər bişirən anasının yanına qaçıb ona hansı hədiyyəni aldığını soruşdu. Anası da ona dedi ki, sənin arzularından birini almışam.

Əsmər təəccüblə anasının üzünə baxdı və dedi: -Necə? Sən mənim arzumun nə olduğunu bilirsən?

Ana qızının saçlarını tumarlayaraq dedi: -Əlbəttə, gözəl qızım, sənin pulla ala bilməyəcəyin hədiyyə bütün sevdiklərinin bir masa arxasında olmasıdır. Əsmər çox sevinclə qonaq otağına keçdi. Çünki arzusu gerçək olmuşdu.

# Əl işi

1. Mətndə "Əə" hərfi olan əşyaların şəkillərini çəkin.

2. Mətndə tərkibində "Ə ə" hərfi olan sözləri seçib söyləyin. Həmin sözləri hecalara bölün.

3. Plastilindən "Ə ə" hərfi hazırlayın.

4. Gəlinciyin hissələrində Ə səsi olan sözləri seçib, cümlədə işlədin.

# Nitq quruculuğu

Sözləri müəllimin köməyi ilə oxuyub, cümlədə işlədin.

| | |
|---|---|
| ***ə-mi*** | ***Hə-diy-yə*** |
| ***Gə-lin-cik*** | ***Əv-vəl*** |
| ***Əl-cək*** | ***Ə-lək*** |



2-ci hissə

## Danışan gəlincik

Qapının zəngi çalındı. Əsmər sevinclə qapıya qaçdı. Ad günü axşam saat 6-da böyük bir süfrə ətrafında başladı. Əmisi Əsməri yanına çağırıb ona hədiyyəsini verdi və tapşırdı ki, onu gecə yatanda açsın. Hamı deyib, gülüb, çox əyləndi. Əsmər isə hədiyyələrini açmağı həvəslə gözləyirdi.

Qonaqlar gedəndən sonra Əsmər əvvəlcə nənəsinin verdiyi hədiyyəni açdı, nənənin toxuduğu əlcəkləri çox bəyəndi və onu qış paltarlarının içinə qoydu. Sonra tələsik əmisinin verdiyi hədiyyəni açdı.

Qutunu açanda gözəl bir gəlincik gördü. Onu çarpayısının baş tərəfinə qoydub yatdı. Bir neçə dəqiqə keçəndən sonra Əsmərin qulağına gözəl bir səs gəldi. "Ad günün mübarək" Əsmər yatağından durub anasını səslədi:

-Ana, ana, gəlincik danışır.

Ana bir daha qızını öpüb dedi:

-Bəli, gözəl balam, bu gəlincik danışır.

Hekayəni səsli dinlə



## Əl işi

Qrup işi

**Qızlar qrupu:**
1. "Ə" hərfi olan əşyaları seçin və rəngləyin.
2. Rənglədiyiniz sözləri cümlədə işlədin.

**Oğlanlar qrupu:**
1. "Ə" hərfi olan əşyaları plastilindən hazırlayın.
***Günəş, ağac, dəvə, ev, dələ, ana, Əli.***

2. Hazırladığınız sözləri cümlədə işlədin.

## Nitq quruculuğu

"Əjdaha ovu" cizgi filmini izləyin və cizgi film haqqında danışın.




## 3-cü hissə
# Əzgil

Sizə kimdən deyim? Kimdən danışım? Əsmər dostları və nənəsi ilə meşəyə əzgil yığmağa getmişdi. Nurlan birdən ağacda balaca bir dələ gördü. Uşaqlar çox sevindilər. Onlar əzgil yığmağa başladılar. Əsmər yaxın dostu Əminə ilə birlikdə əzgil yığırdılar. Əsmər nənəsindən soruşdu:

-Nənə, bu qədər əzgili nə edəcəyik?

Nənə dedi: - Bazarda satacayıq.

Əminə soruşdu: -Nənə, mən 5 kq əzgil alsam nə qədər pul ödəməliyəm?

Nənə gülümsəyərək dedi:

-5 manat .

Əsmər fikirləşməyə başladı ki, 1 kq əzgil neçəyədir?

Hekayəni səsli dinlə



## Əl işi

1. Əzgillə dolu səbət şəkli çəkin və rəngləyin.

2. Əminə 1 kq əzgil üçün 3 manat ödəsə, 2 kq əzgil neçəyə olar?

3. Plastilindən səbət dolu əzgil düzəldin və sayın.

4. 1 kq əzgil 1 manat olsa, 8 kq əzgil almaq üçün nə qədər pul vermək lazımdır?

## Nitq quruculuğu

Əzgilin faydaları haqqında danışın.



4-cü hissə

# Günəş

Əzgil yığımı bitdikdən sonra hamı evə getdi. Nənə uşaqlara kənd toyuğundan ləzzətli yemək hazırladı. Baba samovar qaynatdı. Hər kəs süfrə arxasında oturmuşdu. Əsmər çox sevinirdi, dostu Əminə ilə oynayırdı. Birdən gözəl musiqi səsi eşidildi. Bu "Günəş olaram mən də" mahnısı idi. **Bu uşaq mahnısının sözləri Xanımana Əlibəyliyə, musiqisi isə Hökümə Nəcəfovaya aiddir.** Uşaqlar mahnını eşidən ki, oxumağa başladılar.

Hekayəni səsli dinlə



## Əl işi

1. Günəş şəkli çəkin və rəngləyin.
2. "Günəş olaram mən də" mahnısını xorla oxuyun.

## Nitq quruculuğu

Günəş haqqında araşdırıb danışın.




1-ci hissə

# Meşədəki taxta daxma

Biri vardı, biri yoxdu. Qalın meşə yaxınlığında balaca bir taxta daxma var idi. Bu taxta daxmada bir ailə yaşayırdı. Ailə çox mehriban idi. Bu ailədə ata, ana, baba və nəvə yaşayırdı. Nəvə Tərlan çox ağıllı və tərbiyəli idi. O, babasını çox sevirdi və qayğısına qalırdı. Ailə meşədəki bitkiləri, meyvələri yığıb bazarda sataraq dolanırdı. Bəzən baba meşədəki qurumuş ağacları da kəsib, odun kimi bazarda satırdı.

Tərlan babasından soruşur:

-Baba, axı ağaclar bizim nəfəs almağımız üçün vacibdir. Niyə biz onları kəsib satırıq?

Baba gülümsəyərək nəvəsinin alnından öpdü və dedi:

-Mənim ağıllı balam, əlbəttə, ağaclar olmasa insanlar yaşaya bilməz. Amma biz qurumuş ağacları kəsirik ki, meşə yaxşı nəfəs alsın. Yəni həm təbiətə yaxşılıq edirik, həm də maddi imkanımıza dəstək oluruq

# Əl işi

Qrup işi

**I qrup:**

1. “TAXTA“ sözünü hərf sxeminə yerləşdirin, sözü hecaya ayırın.

| | | | | |
|---|---|---|---|---|
| | | | | |

2. İti rəngləyin.

**II qrup:**

1. Hərflərin üstündəki ədədlərə uyğun sözü oxuyun.

| 1 | 3 | 2 | 4 |
|---|---|---|---|
| A | T | L | I |

2. Plastilindən təkər hazırlayın.

**III qrup:**

1. Təndirdə nə bişirilir? Şəkli rəngləyin.
2. Çətiri rəngləyin.

**IV qrup:**

1. İti sözünü əşyalardan hansına aid etmək olar?

İti

*qazan* *qaşıq* *bıçaq* *çaydan*

2. Şəkillərdən hansının adında “T” səsi varsa onun şəklini çəkin.

    

# Nitq quruculuğu

“Seçilmiş hərflə söz tap və söylə” adlı oyun oynayın.




2-ci hissə

# Ailə süfrə arxasında

Ana nahar yeməyinə çox dadlı yemək bişirmişdi. Hamı süfrə arxasında həvəslə yeməyi gözləyirdi. Ana boşqabları süfrəyə düzərək yeməyi boşqablara çəkdi. Nəvə babanın yanında əyləşmişdi.

Baba hər kəsə "nuş olsun" dedikdən sonra hamı yeməyə başladı. Baba qaşığı əlinə alıb boşqaba aparanda əli boşqaba deyərək boşqabı yerə saldı.

Boşqabın içindəki xörək yerə dağıldı və boşqab sındı.
Ana hislənərək yerə düşən boşqab qırıqlarını və yeməyi yığdı. Yerdə süfrə salaraq babanın qabağına taxta boşabda yemək qoydu.

## Əl işi

Qrup işi

**Oğlanlar qrupu:**
1. Plastilindən qaşıq fiqurunu yapın.
2. Verilmiş şəkli rəngləyin.

**Qızlar qrupu:**
1. İtburnu sözünü hecaya ayırın və dəftərdə yazın.
2. Verilmiş ailə şəklini rəngləyin.

## Nitq quruculuğu

Sinif otağında olan əşyalardan hansıların tərkibində "T" səsi var? Həmin sözləri tapın və cümlədə işlədin.




3-cü hissə

## Nə tökərsən aşına, o da çıxar qaşığına

Ana babaya dedi:

-Bundan sonra yeməkləri taxta boşqabda yeyəcəksən.

Baba kədərlənərək bir gəlinə baxdı, bir də taxta boşqaba. Oğlu da atasına dedi:

-Hə, sənin əlindən boşqablar tez-tez düşüb sınır. Ona görə taxta boşqabda yesən yaxşı olar. Artıq boşqab sınmaz.

Baba dərindən ah çəkdi, oğlu üçün çəkdiyi əziyyətlər gözünün önünə gəldi. Bu hadisələri Tərlan süfrə arxasından izləyirdi.

Bir neçə gün keçdi. Tərlan meşədə oduncaq axarırdı. Birdən meşənin içindən xışıltı səsi gəldi. Xışıltı gələn tərəfə gedib gördü ki, balaca bir tısbaga 5 addım irəli 3 addım geriyə gedir, saralmış otların içindən çıxa bilmir. O əlini uzadıb balaca tısbağanı otların içindən çıxardı və yoluna davam etdi.

# Əl işi

Qrup işi

**I qrup:**
1. Misalları ədəd oxunun köməyilə həll etməklə hər quşun yuvasını təyin edin, ədəd oxundakı uyğun rəqəmlə birləşdirin və şəklini çəkin.




**II qrup:**
1. Ədəd oxunun köməyi ilə quşların budaqdakı yerini müəyyən edin və həmin ədədlərdən misallar qurun. Kardondan quş yuvası düzəldin.



**III qrup:**
1. Misalları həll edin, ağacı rəngləyin və üstündəki armudları sayın.




**IV qrup:**
1. Saymağa davam edin! Buraxılmış rəqəmləri tapın, həmin rəqəmləri plastilinlə düzəldin və bu rəqəmlərdən misallar qurun.

*1 3 4 6 9 10*

*10 8 7 5 4 1*

# Nitq quruculuğu

Tərkibində “T” səsi olan ədədi tapın, ona uyğun məsələ qurun.



## 4-cü hissə

# İbrət dərsi

Sizə kimdən deyim, kimdən danışım? Tərlan oduncaq toplayıb, evlərinə qayıdır. Həyətdə oturub oduncağı yonaraq boşqab düzəldir və evə girir. Əlindəki taxta boşqabı masanın üstünə qoyur.

Ata oğlundan soruşur:

-Oğlum, bu nədir?

Oğlu cavab verir:

-Siz də qocalanda mən bu boşqabda sizə yemək verəcəyəm. Ata ilə ana pərt olaraq bir–birinə baxdılar və etdikləri əməldən utandılar.

O gündən babanı əzizləyərək qayğısına qaldılar.

## Əl işi

Qrup işi

**I qrup:**
1. Şəkilləri rəngləyin və uyğun sözləri müəyyən edin."T" hərfini müvafiq xanalara yazın.

**II qrup:**
1. Şəkli rəngləyin, sizcə, bu kimin şəklidir? Bu haqda danışın.

**III qrup:**
1. Plastilindən baba düzəldin. Tərkibində “T” səsi olan birhecalı sözlər söyləyin.

**IV qrup:**
1. "Baba və nəvə" məzmununda şəkil çəkin və Tərlanın xeyirxahlığı haqqında danışın.

## Nitq quruculuğu

Ev heyvanlarının insan həyatında hansı rolu var? Bu haqda danışın.



1-ci hissə

# Ləmanın yay tətili

Ləman hər yay olduğu kimi bu yay da babasıgilə qonaq gəlmişdi. Əli baba və Lamiyə nənə tək yaşayırdılar. Hər yay övladları, nəvələri onları görməyə gəlirdilər. Onlar sakit bir kəndin yaxınlığında yamyaşıl yaylaqda yaşayırdılar. Burada olan həyat tərzi Ləmana çox maraqlı gəlirdi. Baba və nənə qoyun-quzu saxlayır, onların südündən yağ, pendir, qatıq hazırlayırdılar. Hazırladıqları məhsullar o qədər dadlı olurdu ki, dadından doymaq olmurdu. Onlar, həmçinin süd məhsullarının satışı ilə də məşğul olurdular. Yaxınlıqdakı kənddən gəlib babadan süd məhsulları alırdılar.

Hekayəni səsli dinlə



## Əl işi

1. Mətndən “L” hərfi ilə başlayan sözləri seçib hecalara ayırın.

2. Ləman və Lamiyə sözləri niyə böyük hərflə yazılır?

3. Tərkibində “L” hərfi olan sözlər deyin.

4. Mətndən tərkibində 3 hərf olan sözləri tapın.

## Nitq quruculuğu

1. Süddən hansı məhsullar hazırlanır?

2. Qoyunun insana faydası nələrdir?

3. Kənd həyatını sevirsiniz? Nə üçün?




2-ci hissə

## Ləmanın iti zəkası

Bir gün baba eşitdi ki, kənddə yeni mağaza açılıb, orada kənd məhsulları satılır. Kənd camaatı süd məhsullarını yaxınlığına görə oradan almağa başlayırlar. Babanın satışı zəifləyir və çox məyus olur. Baba və nənə maddi çətinlikləri ola biləcəyi haqqında söhbət edərkən Ləman eşidir.

O düşünür ki, bu işin həlli üçün bir yol tapsın. Araşdıraraq müəyyən qeydlər aparır və həlli üçün plan hazırlayır. Ləman babasına təklif edir ki, satacaqları süd məhsullarını həftədə 2 dəfə maşınla kəndə aparsınlar. Çünki kənd camaatı üçün yaylağa gəlib getmək çətin olurdu. Baba razılaşır. Bu haqda əvvəlki müştərilərinə də məlumat verir. Müştərilər bu təklifi çox bəyənirlər.

## Əl işi

1. Dəftərinizdə “L l” hərfini və tərkibində “l” hərfi olan sözləri hüsnxət normalarına uyğun olaraq yazın.

2. Tərkibində “L” hərfi olan 5 heca yazın.

## Nitq quruculuğu

1. Kənd camaatı nəyə görə məhsullarını babadan almadılar?

2. Siz olsaydınız bu problemi necə həll edərdiniz?

3. Mağazada “L” hərfi ilə başlayan çoxlu məhsullar var. Bu hansı məhsullar ola bilər?




3-cü hissə

## Babanın razılığı

Ləman müştərilər üçün kiçik bir not yazılmış açıqca hazırlayır. Hər müştəriyə aldıqları məhsulun üzərində həmin not yazılmış açıqcanı verir. Bu, müştərilərin çox xoşuna gəlir və söz verirlər ki, daha süd məhsullarını Əli babadan alacaqlar.

Baba nəvəsinin iti ağlına və problemi həll etmə bacarığına görə ona təşəkkür edir. Nənə də Ləmanı öpür və onun ən çox sevdiyi yeməyi - şah plov yeməyini bişirəcəyini söyləyir.

Hekayəni səsli dinlə



## Əl işi

1. Babanın satış üçün gətirdiyi süd məhsullarını sayın.



2. Pendirin çəkisi yağın çəkisindən 4 kq azdır. Yağın çəkisi 10 kq olarsa, pendirin çəkisini hesablayın. 10-dan geri saymaqla hesablayın.




3. Şah plov bişirərkən 1 kq düyü üçün 2 litr su qaynadılmalıdır. Nənə 3 kq düyü üçün neçə litr su qaynatmalıdır?

## Nitq quruculuğu

1. Ləmanın hazırladığı açıqca satışa necə təsir etdi?

2. Sizin sevdiyiniz yemək hansıdır?

3. Süd məhsullarının faydaları nələrdir?




4-cü hissə

# Özünüqiymətləndirən Ləman

Ləman plovdan doyunca yedikdən sonra həyətə düşür. Həyətdə qoyunlar, quzular otlayır, toyuq-cücələr dən yeyirdi. Sevincini gizləyə bilməyən Ləman kəpənəklərin arxasınca qaçıb onları tutmaq istəyirdi. Kəpənəklərin, al lalələrin gözəlliyi göz oxşayırdı. Bu gün etdiyi işə görə özünü çox xoşbəxt hiss edirdi. Ləman problemi həll etmək üçün onun səbəblərini araşdırıb tapmaq bacarığını özündə formalaşdırdı. Düşündü ki, bundan sonra da hər hansı problemlə qarşılaşdıqda onun səbəblərini araşdıracaq.

Hekayəni səsli dinlə



## Əl işi

1. Mətndə təbiətin hansı gözəlliyindən danışıldı?

2. Təbiətin gözəlliyini nümayiş etdirən bir rəsm çəkin.

## Nitq quruculuğu

1. Nə zaman özünüzü qiymətləndirmisiniz? Bu sizə necə təsir bağışlayıb?

2. Təbiətin gözəlliyini ifadə edən bir cümlə söyləyin.




1-ci hissə

## Kələm yarpağı

Biri vardı, biri yoxdu bir dovşan vardı. Dovşan meşədə heyvanlarla birlikdə yaşayırdı. Bir gün dovşan yuvasına gedirdi birdən iri kələm yarpağı tapdı. O bilirdi ki, bu kələm yarpağı kənd sakinlərinin arabasından düşüb. Axı insanlar kələm, kök əkirlər ki, onları aparıb bazarda satıb pul qazansınlar. Sonra da o pula istədikləri ərzaqları alsınlar.

Dovşan kələm yarpağını götürdü. Fikirləşdi ki, onunla yaxşıca nahar edəcək.

Dovşan yoluna davam edirdi ki, birdən armud ağacının altında yaralı bir sərçə balası gördü. Dovşan sərçə balasına kömək etdi. O da dovşana təşəkkür etdi.

## Əl işi

Qrup işi

**I qrup:**
1. Şəkili rəngləyin.
2. Dovşanın yediyi tərəvəzləri seçin.



**II qrup:**
1. Şəkli rəngləyin, "m" hərfini müvafiq xanaya yazın
2. "Kələm" sözünə əlamət bildirən sözlər tapın.

**III qrup:**
1. Şəkli rəngləyin, "m" hərfini müvafiq xanaya yazın.
2. "Meşə" sözünə əlamət bildirən sözlər tapın.

**IV qrup:**
1. Tərkibində "m" hərfi olan meyvələri rəngləyin
2. Tərkibində "m" səsi olan meyvələri cümlədə işlədin.

## Nitq quruculuğu

"Meyvələr" mövzusunda danışın.




2-ci hissə

## Dovşanın yelpiyi

Dovşan yenə də yoluna davam etdi. Az getdi, çox getdi, gəlib bir ana sərçəyə çatdı. O ağlayırdı. Onun yuvası dağılmış, balasının birini isə aparmışdılar. Yuvadakı yumurtalar da yerə tökülmüşdü. Dovşan tez kələm yarpağını çıxarıb çaydan su gətirib ana sərçəyə su verdi. Ana sərçə suyu içib özünə gəldi. Dovşan sərçəyə balasının yerini söylədi. Sərçə dovşana təşəkkür etdi. O, qanad çalıb balasının yanına uçdu.

## Əl işi

Qrup işi:

**Oğlanlar qrupu:**
1. Plastilindən quş yuvası düzəldin.
2. Şəkillərdə "M" səsi olan sözləri seçin və cümlədə işlədin.



**Qızlar qrupu:**
1. Rəngli kağızdan kələm yarpağına bənzər yelpik düzəldin.
2. Şəkillərdə "M" səsi olan sözləri seçin və cümlədə işlədin.



## Nitq quruculuğu

"M" səsi ilə başlayan söz oyunu oynayın.



## 3-cü hissə

# Dovşanın çətiri

Dovşan kələm yarpağını götürüb yoluna davam edirdi. Bu vaxt bir kəpənək güllərdən-güllərə qonaraq dovşana yaxınlaşdı.

-Dovşan, tez ol, kömək elə! Yağış qanadlarımı isladır, uça bilməyəcəyəm.

Dovşan cəld kələm yarpağını kəpənəyin başı üzərinə qaldırdı. Bir azdan yağış kəsdi. Kəpənək yenə də güllərdən-güllərə qonaraq yoluna davam etdi. Dovşanın kəpənəyin güllərdən-güllərə qonması çox xoşuna gəldi. O, kəpənəyin dalınca baxıb onun tullandığı gülləri sayırdı.

# Əl işi

Qrup işi

**I qrup:**
1. Şəkilləri iki rəngdən istifadə etməklə rəngləyin və uyğun riyazi ifadəni yazın.
2. Baba 1 kq kələmi 2 manata satır. 2 kq kələm neçə manat olar?

**II qrup:**
1. Ardıcıllığı davam etdirin,növbəti gül hansı rəngdə olmalıdır?
2. Baba 3 kq alma aldı. 1 kq alma 1 manat olarsa, baba 3 kq almaya nə qədər pul verər?

**III qrup:**
1. Lalənin 6 kəpənək stikeri var. O, stikerlərinin sayını 9-a tamamlamaq üçün neçə stiker almalıdır?
2. Baba 4 kq armud aldı, 4 manat verdi. 1 kq armud neçə manatdır?

**IV qrup:**
1. Güllərin sayına uyğun olaraq ədəd evlərini tamamlayın.







2. Baba 3 kq moruq aldı. Moruğun 1 kq-ı 3 manat olarsa, 2 kq moruq neçə manatdır?

# Nitq quruculuğu

Sinif otağında “M” səsi olan əşyaları cümlədə işlədin.



4-cü hissə

## Dovşanın qayığı

Dovşan çayın sahili ilə yoluna davam edirdi. Dovşan birdən çayda balaca, boğulan bir siçan gördü. Dovşan tez kələm yarpağını çaya atdı. Siçan yarpağın üstünə dırmaşdı, üzüb sahilə çıxdı.

Siçan dovşana minnətdarlığını bildirdi və qaçdı. Kələm yarpağını isə çayın axarı apardı. Dovşan kələm yarpağının dalınca baxıb dedi:

-Eh, mənim naharım üzüb getdi! Bütün bunları görən kirpi dovşana yaxınlaşıb dedi:

-Eybi yox, Dovşan qardaş, əvəzində sən çox xeyirxah işlər gördün. Sərçəyə su verdin, kəpənəyi yağışdan gizlətdin, siçanı boğulmaqdan xilas etdin. Odur ki, mən səni nahara dəvət edirəm.

Dovşan özünü çox xoşbəxt hiss etdi.

Hekayəni səsli dinlə



## Əl işi

**Cütlərlə iş:**

Nağılımızdakı obrazlar bu əşyaların hansından istifadə edə bilərdilər? Onları rəngləyin və uyğun əşyalarla birləşdirin.

## Nitq quruculuğu

Müəllim peşəsi haqqında danışın.




### 1-ci hissə

## Mehriban rəfiqələr

Biri var idi, biri yox idi. İlahə və Fidan adlı iki mehriban rəfiqə var idi. Onlar həm də yaxın qonşu idilər. Bir gün Fidan İlahəgilə qonaq gəldi. Fidan özü ilə gəlinciyini də gətirmişdi. Rəfiqələr bir yerdə oynayıb əylənirdilər. Bir neçə saat birlikdə oynadıqdan sonra Fidan evə getmək üçün İlahə ilə sağollaşdı. İlahə Fidanı qapıdan yola salıb cəld mətbəxdə işləyən anasının yanına gəldi və dedi:

-Ana, Fidanın nə gözəl gəlinciyi var. Mən də istəyirəm elə gözəl gəlinciyim olsun.

## Əl işi

1. Gəlincik sözündə “i“ hərfi sözün hansı hissəsində yerləşir ?

2. Gəlincik sözündə “i“ hərfi neçə dəfə səslənir?

3. Hecaları birləşdirib söz yaradın.

***İ*** ***MAN***
***Lİ*** ***LA***
***İM*** ***LAN***

4. Plastilindən böyük “İ” və kiçik “i” hərflərini düzəldin.

## Nitq quruculuğu

1. Sizcə ana nə edəcək?

2. Siz Fidanın yerində olsaydınız nə edərdiniz?




### 2-ci hissə

## İlahənin gəlinciyi

Ana telefonun dəstəyini qaldırıb ataya zəng edir. Xahiş edir ki, axşam işdən qayıdanda İlahəyə gəlincik alsın. İlahənin nənəsi bu söhbəti eşidib nəvəsini öz otağına çağırıb dedi:

-Gəl, bir yerdə elə bir gəlincik düzəldək ki, dünyada tayı- bərabəri olmasın.

Nənənin bu sözlərindən sevinən İlahə həvəslə razılaşdı. Nənə sandığından rəngbərəng parçalar və rəngli düymələr çıxardı, köhnə bir döşəkçəni  götürüb içindəki yunu boşaltdı, iynəni sapladı, qayçını götürüb  parçaları kəsməyə başladı. İlahə də nənəsinə kömək etdi. Bir neçə saatdan sonra gəlincik artıq hazır idi. İlahə gəlinciyi anasına göstərib dedi:

-Ana, bax, nənəmlə nə gözəl gəlincik düzəltdik.

Ana İlahənin başını sığallayaraq “Afərin” dedi.

Hekayəni səsli dinlə



## Əl işi

1. Gəlincik başqa nələrdən hazırlana bilər ?

2. Verilmiş sözləri oxuyun: ***it, il, mil, ilan, ailə***

3. Verilmiş hərflərdən sözlər yaradın və yazın: ***a, i, l, n***

4. Dəftərinizdə "İ" hərfini və tərkibində "i" hərfi olan sözləri hüsnxət normalarına uyğun olaraq yazın.

## Nitq quruculuğu

1. Nənə ilə İlahənin birlikdə hazırladıqları gəlinciyi sözlərlə təsvir edin.

2. Siz özünüzə hansı oyuncağı hazırlamaq istəyərdiniz?

## Ev tapşırığı

Böyüklərinizin köməyi ilə arzuladığınız oyuncağı hazırlayın.



3-cü hissə

# İlahənin ağıllı düşüncəsi

Qapının zəngi çalındı. Gələn İlahənin atası idi. Onun əlində bir bağlama var idi. Ata əlindəki bağlamanı İlahəyə uzadıb dedi:

-Al, bu da sənin hədiyyən!

İlahə bağlamanı açıb gəlinciyi görəndə çox sevindi:

-Çox sağ ol, ata. Artıq mənim iki gəlinciyim var.

İlahə sevimli gəlincikləri ilə oynayarkən ağlına gözəl bir fikir gəldi. Nənəsinin yanına qaçaraq dedi:

-Nənəcan, nənəcan, mən yenə gözəl gəlinciklər hazırlamaq istəyirəm. Mənə kömək edərsən?

Nənə dedi:

-Əlbəttə, kömək edərəm, mənim balam. Amma de görüm, çoxlu gəlincikləri nə edəcəksən?

-Nənə, hazırladığımız gəlincikləri həyətdəki uşaqlara satacağam. Oradan qazandığım pulla məktəb ləvazimatlarımı alacağam.

Nənə gülümsəyərək razılaşdı. Onlar işə başladılar. Günün sonunda artıq 7 dənə gəlincik hazır idi. İlahə çox sevinirdi.

Hekayəni səsli dinlə



# Əl işi

1. İlahə 7 gəlinciyin hər birini 1 manata satarsa , ümumi neçə manat pul qazanar? Rəngli kağızdan həmin say qədər lentlər kəsin.

2. İlahə qazandığı puldan 5 manat xərcləsə neçə manat pulu qalar?

3. İlahənin qazandığı pul 10 ədədindən nə qədər azdır?

4. Ardıcıllığı 10 ədədinə kimi davam etdirin: 1, 2, ...

# Nitq quruculuğu

1. İlahə daha çox gəlincik hazırlayıb satmaq üçün nə edə bilər?

2. Siz olsanız necə bir oyuncaq hazırlayıb satardınız?



4-cü hissə

# İlahənin pul qazanması

Səhər İlahə yerindən duran kimi gəlincikləri zənbilinə yığıb həyətə düşdü. Bir azdan həyətdə bütün uşaqlar, əsasən də, qızlar İlahənin başına toplaşdı. Onlar hazırlanmış gəlincikləri görüb çox bəyəndilər. Gedib valideynlərindən pul götürüb gəlirdilər. Bəyəndikləri gəlinciyi alırdılar. Günün sonunda İlahə bütün gəlincikləri satıb sevinclə qazandığı pulları evə gətirdi. Nənəsini qucaqlayıb ona təşəkkür etdi.

Hekayəni səsli dinlə



## Əl işi

1. Yumaq ipindən gəlincik hazırlayın. (Texnologiya dərsliyində nümunələrə baxın)

2. Plastilindən müxtəlif oyuncaqlar düzəldin.

## Nitq quruculuğu

1. İlahə nənəsinə təşəkkür edərkən hansı sözlərdən istifadə edə bilər?

2. Sizə kimsə təşəkkür edibmi? Nə üçün?

3. Bəs siz olsanız qazandığınız pulu nəyə xərcləyərdiniz?



## 1-ci hissə

# Vız-vız xanım bağda

Biri var idi, biri yox idi. Bir arı var idi. Bu arı o qədər vız-vız edib uçurdu ki, dostu ayı ona Vız-vız xanım adı vermişdi. Vız-vız xanım çox çalışqan idi. Onun ailəsi çox işgüzar idi. Onlar heç kimə zərər vermirdilər. İşləyib bal yığırdılar ki, insanlar yararlansınlar. İnsanlar arıların balını, şanısını bazarda satıb pul qazanırdılar.

Bir gün Vız-vız xanım uçub bir bağa gəldi. Bağda yaşıl yarpaqlı sarı qarğıdalı, çoxlu fındıq ağacı, yaşıl saplaqlı qırmızı albalı və çoxlu rəngbərəng güllər var idi.

Hekayəni səsli dinlə



## Əl işi

Qrup işi

**I qrup:**
1. Plastilinlə fındıq ağacı hazırlayın.
2. Altı, balış, ayı, bağışlama sözlərini hecalara ayırın.

**II qrup:**
1. Plastilindən albalı ağacı hazırlayın.
2. Sinifdəki hansı uşaqların adlarında "ı" hərfi olduğunu araşdırın.

**III qrup:**
1. Plastilindən sarı güllər hazırlayın.
2. Arı, Vız-vız xanim, qarğıdalı, fındıq, ayı sözlərini hecaya ayırın.

**IV qrup:**
1. Plastilindən sarı qarğıdalı hazırlayın.
2. Qırmızı, sarı, yaşıl, narıncı sözlərinin hansında eyni hərf var? Hansında bu hərfdən daha çoxdur?

## Nitq quruculuğu

Sinif otağında "ı" səsi olan əşyaları cümlədə işlədin.




### 2-ci hissə

## Ağlayan hərf

Vız-vız xanım bağda xeyli şirə yığdı. Ana arı Vız-vız xanıma zəhmət çəkdiyi üçün "çox sağ ol" dedi. Ana arı icazə verdi ki, Vız-vız xanım gedib dincəlsin.

Vız-vız xanım yenicə çiçəyin üstünə qonub dincəlirdi ki, kiminsə bərkdən ağladığını gördü. Ağlayan Əlifba şəhərinin sakini “I” hərfi imiş. Vız-vız xanım soruşdu:

-Ay "ı" hərfi, niyə ağlayırsan?

"ı" hərfi dedi:

-Bax, ay Vız-vız xanım, indiyə qədər sən hansı hərfləri tanıdın?

Vız-vız xanım yenicə bu hərfləri saymışdı ki, "ı" hərfi lap bərkdən ağladı. Dedi: -Bax, saydığın bütün hərflərlə söz başlayır, amma mənimlə söz başlamır.

Arı dedi:

-Sən əvvəlcə mənə de görüm, sən Əlifba şəhərində neçə nömrəli evdə yaşayırsan?

"ı" hərfi fikirləşdi, sonra evinin nömrəsini dedi.

Vız-vız xanım dedi:

-Bax, sənin əlifba sırasında öz yerin də var. Uşaqlar da səni çox istəyirlər.

Səninlə söz başlamasa da , sözün ortasında və əvvəlində işlənirsən. İnanmırsan, gəl, uşaqlardan soruşaq.

## Əl işi

1. Plastilinlə "ı" hərfini hazırlayın.
2. Dəftərinizdə "I ı" hərfini hüsnxət normalarına uyğun olaraq yazın.

## Nitq quruculuğu

Tərkibində "ı" hərfi olan sözlər tapın və hecalara ayırın. Cümlələrdə işlədin.




3-cü hissə

## Meşədə

Vız-vız xanım "ı" hərfini sakitləşdirdiyi üçün çox xoşbəxt idi.

O, öz gözəl mahnısını (vız-vız-vız) oxuya-oxuya meşəyə üz tutdu. Meşə yamyaşıl idi. Quşlar cəh-cəh vururdu. Vız-vız xanım meşədə çoxlu heyvanlar, həşəratlar gördü. Amma o qədər vızıldayırdı ki, sayıb hesabladığı heç nə yadında qalmırdı.

## Əl işi

Qrup işi

**Oğlanlar qrupu:**
1. Meşədə 4 boz sincab fındıq yeyirdi. 2 qəhvəyi sincab da onlara qoşuldu. Neçə sincab oldu?

2. 2 kq bal üçün 10 manat verilərsə, 1 kq bal neçəyə olar? Bal küpü çəkib rəngləyin.

**Qızlar qrupu:**
1. Yaşıl yarpağın üstündə 3 uğurböcəyi var idi. 3-ü də gəldi. Yarpağın üstündə neçə uğurböcəyi oldu? Şəklini çəkin və rəngləyin.

2. Vız-vız xanımın vızıltısını eşidib meşədəki 4 arı rəfiqəsi uçub onun yanına gəldilər. Cəmi neçə arı oldu? Arıları rəngləyin.

## Nitq quruculuğu

***6, 3, 7, 9, 5*** ədədlərindən hansında "ı" səsi varsa, ona uyğun məsələ qurun.



4-cü hissə

# Mahnı

Artıq axşam olurdu, Vız-vız xanım yuvaya qayıtmalı idi. Amma hələ də meşədən çıxa bilməmişdi. Bu zaman uzaqdan vızıltı səsi eşidildi. Artıq Vız-vız xanım yuvanın yolunu tapmışdı. Uçduğu zaman meşə kənarında oynayan kiçik uşaqları gördü.

Uşaqlar evə getməli idilər, amma başları oynamağa qarşımışdı. Bu zaman ağlına maraqlı fikir gəldi. O var gücü ilə vızıldayaraq, uşaqların üstünə cumdu. Uşaqlar qorxub qaçdılar və evlərinə getdilər.

Vız-vız xanım gülümsəyərək yuvaya uçdu.

Hekayəni səsli dinlə



## Əl işi

1. Plastilinlə arı düzəldin.

2. “Arı vız-vız” mahnısını oxuyun.

## Nitq quruculuğu

Tərkibində “l” səsi olan söz oyunu oynayın.



1-ci hissə

# Balaca Nəbi

Nəbinin altı yaşı var idi. Babası ona gül əkməyi öyrətmişdi. O da dibçəklərə güllər əkərək satır, qazandığı pullarla lazım olan məktəb əşyaları alırdı.  Nəbi 1-ci sinfə gedirdi. Artıq bəzi sözləri yaza və oxuya bilirdi. Bununla da çox fəxr edirdi.

Bir gün o, həyətdə dibçəklərdə gül əkə-əkə öz iti Bozdarla söhbət edirdi.

Nəbi: -Bozdar, bilirsən, mən ana, ata, nənə, əmi sözlərini yaza bilirəm?

Bozdar sanki onu başa düşürdü, Nəbinin ətrafında quyruğunu bulayaraq dövrə vurur, sevinclə hoppanıb-düşürdü.

Bilal baba Nəbinin Bozdarla söhbətini eşidib onlara yaxınlaşdı.

-Afərin, mənim Nəbi balama. De görüm , sən mənim adımı da yaza bilirsənmi?

Nəbi fikrə getdi. O, çox pərt olmuşdu, bildi ki, Bilal baba sözlərini yazmaq üçün o, “B” hərfini yaza bilməlidi. Buna görə də o bilmirdi nə etsin.

## Əl işi

Plastilindən böyük və kiçik “b” hərfini düzəldin.

## Nitq quruculuğu

1. Kim daha çox söz tapar?

a) B hərfi sözün əvvəlində olan sözlər söyləyin.
b) B hərfi sözün ortasında olan sözlər söyləyin.
c) B hərfi sözün sonunda olan sözlər söyləyin.

2. Elə cümlə qurun ki, bütün sözlərin tərkibində “b” hərfi olsun.

## Ev tapşırığı

Öz otağınızda olan əşyalardan hansının tərkibində “b” səsi olduğunu müəyyən edin.




2-ci hissə

# Çalışqan Nəbi

Nəbi əkdiyi güllərə su verdi və babası ilə birlikdə evə gəldilər. O, cəld əllərini yuyaraq öz otağına keçdi, qələm və dəftər götürərək babanın adını yazmağa çalışırdı.

Elə bu vaxt baba Nəbini çağırdı. Nəbi çox həyəcanlandı. Elə bildi ki, baba ona adını yazmağı xahiş edəcək. Axı o hələ “B” hərfini tam yaza bilmirdi. Nəbi babanın yanına gəldi.

Baba dedi: - Mənim Nəbi balam, gəl mən sənə “B” hərfini yazmağı öyrədim.

Nəbi çox sevindi. O, dəftərini və qələmini gətirib babaya verdi. Nəbi əziz babası ilə birlikdə “B” hərfini yazmağı öyrəndiyi üçün sevincinin həddi-hüdudu yox idi. Sonra Nəbi dəftərə “Bilal baba” yazdı, babasına göstərərək onun boynuna sarıldı. Nəbinin sevincini görən ailə üzvlərinin hər birinin gözləri güldü.

## Əl işi

1. Dəftərdə “B” hərfini və sözləri hüsnxət normalarına uyğun yazın.

2. ***Cütlərlə iş:***

Plastilindən adında “b” hərfi olan əşyalar düzəldin.

## Nitq quruculuğu

Düzəltdiyiniz əşyaların adında “B” hərfinin sözün əvvəlində, ortasında yoxsa sonunda işləndiyini söyləyin. Həmin sözləri hecaya bölün.




3-cü hissə

# Olimpiya sarayı

İstirahət günü olduğundan hamı evdə idi.
Baba dedi: - Mənim Nəbi balam, get hazırlaş, bacın Nanəyə də denən, o da hazırlaşsın. Sizi yaxınlıqdakı Olimpiya sarayına aparacam. Bu gün karate üzrə maraqlı yarışlar olacaq. Nəbi çox sevindi. "Ura!" deyərək qışqırdı.

Onlar birlikdə Olimpiya sarayına getdilər. Zalda çoxlu oturacaqlar var idi. Nəbi öz yerini tapmaq üçün oturacaqları saymağa başladı.

" 1, 2, 3, 4, 5, 6, ..." Baba gülümsəyərək nəvəsinin başını sığalladı, yerləri saymaq üçün sıra saylarından da – birinci, ikinci və s. istifadə edə biləcəyini izah etdi.

Hekayəni səsli dinlə



## Əl işi

**I qrup:**
1. 4 dənə gül şəkli çəkin və verilmiş məlumata uyğun olaraq rəngləyin.
Birinci gül qırmızıdır. Sonuncu gül sarıdır. İkinci gül mavidir. Sarı güldən əvvəlki gül çəhrayıdır.

**II qrup:**
1. Şəkildə verilmiş zalın oturacaqlarını nömrələyin. Oturacaqların ümumi sayı qədər kvadrat çəkib rəngləyin
Qeyd: Yerləri soldan sağa doğru nömrələyin.
(Nümunə: 2-ci cərgə 4-cü yer)



**III qrup:**
1. Məlumata əsasən Nəbinin, babanın və Nanənin yerini müəyyən edin. Plastilindən oturacaq hazırlayın.
***Qeyd:*** Yerləri soldan sağa doğru nömrələyin.
Baba orta cərgədə 2-ci yerdə əyləşib. Nəbi, babanın solunda əyləşib. Nanə isə babanın sağında əyləşib. Onların yerlərini sıra sayları ilə ifadə edin.

**IV qrup:**
1. Göy qurşağını rəngləyərək rəngləri sıra sayları ilə nömrələyin.
2. Nəbi və Nanə əl işlərindən qazandıqları pullarını da özləri ilə götürmüşdülər. Baba bilet alarkən Nəbi 4 manat, Nanə isə 2 manat babaya verdi. Biletlərin ümumi qiyməti 10 manat olarsa , baba nə qədər pul verməlidir?

## Nitq quruculuğu

1. Qrup işlərini təqdim edin.
2. Verilmiş sualları sinif yoldaşlarınıza ünvanlayaraq birgə cavablandırın.

a) Sən hansı sırada əyləşmisən?
b) Sinifdə birinci sıra ilə sonuncu sıra arasında neçənci sıralar yerləşir?
c) Nəbi evdə neçənci övlad idi?
d) Bəs sən evdə neçənci övladsan?
e) İndi neçənci sinifdə oxuyursan?
f) Sonra neçənci sinifləri oxuyacaqsan?



### 4-cü hissə

## Nəbinin əzmkarlığı

İdman yarışları uşaqların çox xoşuna gəldi. Yarış bitdikdən sonra onlar evə gəldilər. Nəbi vaxt itirmədən paltarını dəyişərək həyətə qaçdı. Həyətdə hazırladığı dibçəklər üçün stend hazırladı. Bu dəfə o, güllərini ailə üzvləri üçün satışa çıxarmalı idi. Buna görə də çox həyəcanlı idi. “Görəsən, mənim əkdiyim gülləri bəyənəcəklər?” – deyə düşünürdü.  Budur, artıq baba, nənə, ana, ata və bacısı Nanə stendə yaxınlaşıb güllərin qiymətləri ilə maraqlanırdılar. Nəbi həvəslə güllərin adlarını və qiymətlərini deyir, hər birinin qulluq qaydalarını izah edirdi.

Nəhayət, Nəbi satışı uğurla bitirdi.

Qrup işi:

**I qrup:**
1. Ananın atası necə adlanır? Yazın və həmin şəxsin şəklini çəkin.

**II qrup:**
1. Atanın bacısı necə adlanır? Yazın və həmin şəxsin şəklini çəkin.

**III qrup:**
1. Ananın qardaşı necə adlanır? Yazın və həmin şəxsin şəklini çəkin.

**IV qrup:**
1. Valideynlərin anası necə adlanır? Yazın və həmin şəxsin şəklini çəkin.

## Nitq quruculuğu

1. Qrup təqdimatlarını edərkən kiçik dialoqlar yaradaraq səhnələşdirin.

2. Nəbi qazandığı gəlirdən məktəb ləvazimatları aldıqdan sonra qalan pulla ailə üzvlərinə hədiyyə almaq istəyir. Sizcə, Nəbi necə hədiyyə almalıdır ki, ailə üzvləri bəyənsin. Fikrinizi əsaslandırın.



1-ci hissə

# Ac ayı

Biri var idi, biri yox idi, meşədə qoca bir ayı yaşayırdı. Qış düşmüşdü, hər yerə qar yağmışdı, bütün quşlar və heyvanlar qaçıb yuvalarına gizlənmişdilər.

Ayı yeməyə heç nə tapa bilmirdi, az qalırdı acından ölsün. Bir gün ayı yatmışdı. "Ac toyuq yuxusunda darı görər" məsəlinə uyğun olaraq, ayı da yuxuda bir şaqqa ət gördü, damağını marçıldada-marçıldada əti yeməyə başlamışdı ki, öz səsinə oyanıb yuxuda gördüyü əti axtarmağa başladı. Mağaradan çıxıb, bir xeyli yol getdi, gəlib bir dağın ətəyinə çatdı.

# Əl işi

**I qrup:**
1. Plastilindən ayı hazırlayın.
2. “Yarpaq” sözünün hərf sxemini araşdırın və cümlədə işlədin.

**II qrup:**
1. Plastilindən ayı hazırlayın.
2. "Yarasa" sözünün hərf sxemini araşdırın və cümlədə işlədin.

**III qrup:**
1. Verilmiş ayı şəklini rəngləyin.
2. “Təyyarə” sözünün hərf sxemini araşdırın və cümlədə işlədin.

**IV qrup:**
1. Verilmiş hissələri kəsin və yapışdırın.
2. “Layla” sözünün hərf sxemini araşdırın və cümlədə işlədin.

# Nitq quruculuğu

Tərkibində "Y" hərfi olan sözlər düşünün və o sözlərdən istifadə edərək cümlələr qurun.




## 2-ci hissə

# Ayının yaylağa səfəri

Ayı gəlib yaylağa çıxdı. Acından gözü heç nə görmürdü. Yaylaqda yeməli heç nə yox idi. O, arı sürüsü ilə rastlaşdı. Ayı soruşdu:

-Sizin balınız var? Mən çox acımışam.

Arılar dedi:

-Vız-vız-vız. İnsanlar balımızı yığıb, satıblar. Sən istəsən onlardan ala bilərsən.

Ayı dedi:

-Mənim bal almağa pulum yoxdu axı.

Ayı bulaqdan su içib yoluna davam etdi.

## Əl işi

1. Plastilindən "Y" hərfi düzəldin.

2. Çöplərdən və ya karandaşlardan "Y" hərfi düzəldin.

2. Dəftərdə " Y y" hərfini hüsnxət normalarına uyğun yzın.

3. Tərkibində "y" hərfi olan sözlər yazın.

## Nitq quruculuğu

***ac, bir, var, Meşədə, ayı.***

Verilmiş sözlərdən cümlə düzəldin.

## Ev tapşırığı

Öz otağınızda olan əşyalardan hansının tərkibində “y” səsi olduğunu müəyyən edin.




### 3-cü hissə

# Keçinin hiyləsi

Dağın ətəyində bir çoban qoyun otarırdı. İndi görək ayının başına nə gəldi? Sürünün qabağında gedən keçilərdən biri sürüdən aralı, qayanın başına dırmaşırdı. Birdən ayağının altından daş sürüşdü, keçi yıxılıb yerə düşdü. Sən demə, ac ayı qayanın dibində keçini güdürmüş, o saat keçinin başının üstünü alıb dedi:

-Aha, keçi qardaş, demək yuxum düz imiş, indi səni yeyəcəm.

Keçi istədi qaça, amma gördü ki, çox əzilib, həm də ayı başının üstünü kəsib. Odur ki, özünü toxdadıb hiyləgərliklə dedi: -Ayı qardaş, onsuz da bir gün məni kəsib, satacaqlar. Elə sən yesən hamısından yaxşıdı, çünki sən insaflısan, heç olmasa mənim xahişimi yerinə yetirib sonra yeyərsən.

Ayı dedi: Nədir sənin xahişin?

Keçi dedi: -Sən bilirsən ki, mənim yaxşı səsim var, qoy bir az oxuyum.

Ayı aldanıb razılıq verdi. Çoban keçinin səsini eşidən kimi çomağı çiyninə aldı, itləri də çağırıb səs gələn tərəfə yüyürdü. Çoban çomaqla ayını qovdu, bu tərəfdən də Alabaşla, Bozdar hürərək ayını qorxutdular. Ayı meşəyə qaçıb canını qurtardı.

# Əl işi

**I qrup:**
1. Sürüdə 10 keçi var idi. Keçinin biri dağdan aşandan sonra sürüdə neçə keçi qaldı? İfadə qurun.
2. Cəmi tapın.



*5+0=5*

**II qrup:**
1. Sürünü hansı heyvan qoruyur? Keçini neçə it xilas etdi?
2. Cəmi tapın.

*4+0*   *0+3*
*6+0*   *0+4*
*7+0*   *0+9*

**III qrup:**
1. Ayı meşədə ət axtaranda ağaclara da baxırdı. Ağacda iki yuva gördü. Hər yuvada 3 bala quş olarsa, cəmi neçə quş var?
2. Boş hissədəki nöqtələrin sayını tapın.



*4+0 =4*   *2+ .... =3*   *.... +5=5*   *.... +2=5*

**IV qrup:**
1. Cəmi tapın.



*3+0=3*   □+□=□   □+□=□   □+□=□

2. Boş xanalara uyğun ədədləri yazın.

□*+6=6*   □*+0=5*   □*+0=4*
□*+0=6*   □*+5=5*   □*+4=4*

# Nitq quruculuğu

Bir hekayə qurun, içində 10 dəfə ayı sözü işlənsin.




4-cü hissə

## Qoçlarla görüş

Aradan bir az keçmiş ayı gördü ki, yenə acından ölür, yuxuda gördüyü əti axtarmağa başladı, az getdi, çox dayandı, çox getdi, az dayandı, iki ağ qoça rast gəldi.

Qoçlar istədilər qaçsınlar, gördülər, yox, yaman yerdə yaxalanıblar. Odur ki, ayıya ədəb-ərkanla salam verib dedilər:

-Ayı, kefin necədi?

Ayı dedi:

-Kefim necə olacaq, bir həftədir acından ölürəm, yaxşı oldu sizi tutdum. İndi ikinizi də yeyərəm, kefim düzələr.

Qoçlar göz-qaş eləyib ayıya kələk gəldilər. Qoçun biri o birinə dedi:

-Ayı, gərək əvvəl məni yesin. İkinci qoç dedi:

-Yox, gərək qabaqca məni yesin.

Ayı gördü ki, qoçlar əl çəkmirlər, odur ki, dedi:

-Gəlin belə bir şərt kəsək. Hərəniz bir tərəfə çəkilin, kəllə-kəlləyə döyüşün, kimin buynuzu qırılsa, onu qabaqca yeyəcəyəm.

Qoçlar belə fürsəti çoxdan axtarırdılar. Odur ki,hərəsi ayının bir tərəfinə keçib geri çəkildilər. Hər iki tərəfdən ayının başına elə bir kəllə vurdular ki, ayı gicəllənib yerə yıxıldı. Qoçlar qaçıb getdilər.

Hekayəni səsli dinlə



## Əl işi

Qrup işi

**I qrup:**
1. Plastilindən iki qoç hazırlayın.
2. Sözlərin düzgün ardıcıllığını tapın.
***altı dərdi nar Dəyanət dənə***

**II qrup:**
1. Şəkildəki qoçları rəngləyin.
2. Nağıldakı qoçlar necə xilas oldular?

**III qrup:**
1. ”Y” hərfini plastilindən yapın.
2. Sözlərin düzgün ardıcıllığını tapın.
***manat aldı Aydan atadan bir***

**IV qrup:**
1. Tərkibində “Y” hərfi olan şəkilləri rəngləyin.
2. Sözlərin düzgün ardıcıllığını tapın.
***bəyəndi nənənin əmi ayranını Bayram***

## Nitq quruculuğu

Ayılar nə ilə qidalanır? O, meşədə başqa nə tapıb yeyə bilərdi?



1-ci hissə

## Səhrada

Biri var idi, biri yox idi, iki dost var idi. Onlar səhrada yaşayırdılar. Səhrada yaşamaq onlar üçün çox çətin idi. Dostlar çarəsiz idilər. Onlar çox fikirləşirdilər ki, evlərinə necə getsinlər. Bir gecə dostlar yatdıqları zaman səhradan zınqırov səsləri, hay-haray eşitdilər. Səsə hər iki dost ayağa qalxdı. Öncə çox qorxdular. Bunun nə səs olduğunu aydınlaşdırmağa çalışdılar. Həyəcanla ətrafa baxdılar. Sən demə, səhradan dəvə karvanı keçirmiş. Dostlar dəvə karvanının sahibinin yanına gəldilər. Ondan hara getdiklərini soruşdular. Karvan sahibi dedi:

-Səyahətə çıxmışıq.

O, nağıllar aləminə bənzəyən, gözəl bir ölkəyə yollandıqlarını söylədi və dedi:

-Həmin ölkənin gözəl təbiəti var. Sizin yaşadığınız səhra kimi deyil. Yaşıl meşələri, geniş çölləri, gül-çiçəkli bağçaları, çayları, gölləri, dənizi var.

Dostlar dəniz, çay, göl sözlərini eşidən kimi təəccübləndilər. Karvan sahibi davam etdi:

-Həmin ölkə təbii sərvətlərlə zəngindir. Yerin üstü də, altı da qızıldır. Dostlar ondan xahiş etdilər ki, onları da o ölkəyə aparsın. Beləcə, dostlar da dəvələrin belinə əyləşdilər. Dəvə karvanı yola düşdü. Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, həmin məkana çatdılar.

## Əl işi

Qrup işi

**I qrup:**
1. Plastilindən dəvə düzəldin.
2. Mətndə tərkibində “S” səsi olan sözləri müəyyən edin və hecaya ayırın.

**II qrup:**
1. Plastilindən günəş düzəldin.
2. "Səməd və Seymur səyahətə çıxdılar." cümləsində “S” səsi olan sözləri seçin və hecaya ayırın.

**III qrup:**
1. Plastilindən siçan düzəldin.
2. Verilmiş şəkillərdə tərkibində “S” səsi olan sözləri müəyyən edin və hecaya ayırın.








## Nitq quruculuğu

“S” səsi ilə başlayan söz oyunu oynayın.




2-ci hissə

## Sehrli meşə

Dostlar sehrli bir aləmə düşmüşdülər. Dəvə karvanının sahibinin söylədiklərindən daha gözəl bir mənzərə ilə qarşılaşdılar. Bəh! Bəh! Çayın şırıltısı, quşların cəh-cəhi, meşənin təmiz havası, yaşıllığı dostların gözlərini qamaşdırdı. Onlar sevinə-sevinə meşəni gəzirdilər. Birdən ağlamaq səsi eşitdilər. Dostlar səs gələn tərəfə getdilər. Ağacın altında oturub ağlayan oğlanı gördülər. Sən demə o, meşədə azıbmış. Dostlar ona yaxınlaşıb niyə ağladığını soruşdular.

Oğlan dostları ilə birlikdə meşəyə odun yığmağa gəldiyini dedi. Lakin meşədə azmışdı. Səməd və Seymur ona kömək etmək istədilər. Lakin bu hadisə onlara tanış gəldi. Onlar da illər öncə səhrada azmışdılar. Kənara çəkilib bu haqda danışdılar. Lakin geri çevrilib oğlanın yanına gəlmək istədikdə onu görmədilər.

## Əl işi

Qrup işi

**I qrup:**
1. Tərkibində "S" səsi olan meyvələri rəngləyin.
2. Rənglədiyiniz şəkilləri cümlədə işlədin və dəftərinizdə yazın.

**II qrup:**
1. Tərkibində "S" səsi olan heyvanları rəngləyin.
2. Rənglədiyiniz şəkilləri cümlədə işlədin və dəftərinizdə yazın.

**III qrup:**
1. Tərkibində "S" səsi olan əşyaları rəngləyin.
2. Rənglədiyiniz şəkilləri cümlədə işlədin və dəftərinizdə yazın.

## Nitq quruculuğu

Sinif otağında  "S" səsi ilə başlayan sözləri cümlədə işlədin.



3-cü hissə

## Sehrli siçan

Seymur və Səməd sehrli meşədə gəzirdilər. Çiyələk yeyir, meşəni seyr etməkdən doymurdular. Birdən kolların arasından xışıltı eşidildi. Onlar qorxub qaçmaq istədilər. Uşaqlar kolluğun içərisinə boylandılar. Kolluqda balaca siçanı görüb güldülər. Siçan tərpənmədi. Uşaqlar təəccübləndilər, ona yaxınlaşdılar.

Siçan dil açıb danışdı:

-Siz də meşənin meyvələrini yığmağa gəlmisiniz?

Uşaqlar bir-birinə baxıb danışmadılar.

Siçan dedi:

-İnsanlar meşədəki meyvələri, odunları, samanları yığıb aparıb bazarda satırlar. Meşə təbii sərvətdi, amma unudursunuz ki, burada da canlılar yaşayır. Siz bunları yığıb satıb pulluna ərzaqlar alırsınız, amma meşənin bizim kimi kiçik sakinlərini incidirsiniz. Uşaqlar bir-birinə baxıb pərt oldular.

## Əl işi

Qrup işi

**I qrup:**
1. Dostlar çaydan 7 xanı balığı və 3 kütüm balığı tutdular. Uşaqlar cəmi neçə balıq tutdular? ***(Məsələnin həllini ədəd oxu üzərində modelləşdirin)***
2. Rəngli kağızlardan meşə hazırlayın.

**II qrup:**
1. Dostlardan biri 4 qayıq, o birisi isə 5 qayıq şəkli çəkdi. Dostlar cəmi neçə qayıq şəkli çəkdi? ***(Məsələnin həllini ədəd oxu üzərində modelləşdirin)***
2. Rəngli kağızlardan siçan hazırlayın.

**III qrup:**
1. Dəvə karvanında 10 nəfər var idi. Onlardan 6-sı kişi, qalanları qadın idi. Karvanda neçə qadın var idi? ***(Məsələnin həllini ədəd oxu üzərində modelləşdirin)***
2. Rəngli kağızlardan səhra hazırlayın.

## Nitq quruculuğu

Meşələr haqqında danışın.




4-cü hissə

# Vətən

Seymur və Səməd bu gözəl, sehrli diyarın Azərbaycan olduğunu öyrəndilər. Onlar gördülər ki, bu ölkənin uşaqları çox şən, mehriban və qonaqpərvərdilər.

Seymur və Səməd geriyə qayıtmaq istəmirdilər. Burada uşaqlar təhsil alır, onların hüquqları qorunur. Onlar boş vaxtlarında əyləncə mərkəzlərində oyunlar oynayır, istirahət edirlər. Dəvə karvanı yola düşmək üzrə idi. Seymur və Səməd geri qayıtmadılar. Dəvə karvanı isə yoluna davam etdi.

Hekayəni səsli dinlə



## Əl işi

1. Hərəniz plastilindən bir dəvə yapıb karvan düzəldin.
2. Mahnını kollektiv xorla oxuyun.

***"Gözəl Vətən"***
Sözləri: Teymur Elçinin
Musiqisi: Oqtay Zülfüqarovun.

## Nitq quruculuğu

Vətən haqqında danışın.




1-ci hissə

## Qırmızı şar

Şəfəq birinci sinifdə oxuyur. Məktəbə çox həvəslə gedir. Bir gün o, məktəbə gedəndə qəribə bir hadisənin şahidi olur. Zəng çalınanda müəllim əlində böyük bir qırmızı şarla sinfə daxil olur. Uşaqlar çox təəccüblənirlər.

Şəlalə müəllim deyir: -Uşaqlar, bu şarı sizin üçün gətirmişəm. Uşaqlar şara yaxınlaşanda qırmızı şar qəfildən partladı. İçindən bir məktub çıxdı. Hamı heyrətlə məktuba baxdı.

Şəlalə müəllim dedi:

-Gəlin, məktubu bir yerdə oxuyaq.

Onlar məktubu açanda içində çoxlu şəkillər var idi. Məktubun əvvəlində yazılırdı: Bu gün siz yeni hərf öyrənəcəksiniz. O hərfi görəndə təəccüblənməyəcəksiniz. Siz artıq “S“ hərfini keçmisiz. Yeni hərf də onun kimi yazılır. Fərqi budur ki, onun balaca quyruğu var. Adı isə “Ş” hərfidir. “Ş” sözün əvvəlində, ortasında və axırında yazıla bilir.

## Əl işi

1. Tərkibində “Ş” səsi olan sözləri cümlədə işlədin.

2. Plastilindən “Ş” hərfi düzəldin.

## Nitq quruculuğu

1. “Şam işığı” başlığına uyğun hekayə qurun.

**Oyunun qaydası:** Mətnin ilk cümləsini müəllim deyir, şagirdlər davam etdirir. Hər kəs mətnin məzmununa uyğun bir cümlə deməlidir.




2-ci hissə

## Bacarıqlı uşaqlar

Müəllim məktubu oxumağa davam etdi.

-“Ş” hərfini daha əyləncəli öyrənmək üçün tərkibində “Ş” hərfi olan oyuncaqlar və şirniyyatlar hazırlayın.

Şəlalə müəllim bu tapşırığı yerinə yetirmək üçün uşaqlara bir gün vaxt verdi. Səhəri gün hər kəs hazırladığı əl işlərini məktəbə gətirməli idilər. Zəhra anası ilə birlikdə şəkərbura bişirdi. Şahin taxtadan mişar hazırladı. Humay parçadan dovşan oyuncağı hazırladı. Zeynəb nənəsi ilə birlikdə şərf toxudu. Əli gözəl şar şəkli çəkdi. Ömər plastik qablardan maşın hazırladı. Uşaqlar çoxlu əl işləri hazırlayaraq məktəbə gəldilər. Müəllim uşaqların əl işlərini görüb çox bəyəndi. Məktəbin həyətində satış stendi hazırladılar. Digər sinif şagirdləri stendlərə yaxınlaşaraq əl işlərinə baxır, bəyəndiklərini alırdılar.

Hekayəni səsli dinlə



## Əl işi

1. Ş hərfini və tərkibində "ş" hərfi olan bir neçə sözləri hüsnxət normalarına uyğun yazın.

2. Verilmiş sözləri hecalara bölərək dəftərdə yazın.
Sözlər: ***aşdı, şirə, maşın, Bəşir, şirin, şəlalə, işarə, yaşa***

## Nitq quruculuğu

1. Tərkibində "ş" səsi olan başqa hansı əşyaları hazırlamaq olar?

2. Sinifdə "Oxu guşəsi" olmasının üstünlükləri hansılardır?




3-cü hissə

## Düşünülmüş ideya

Uşaqlar satışdan qazandıqları pullarla sinifdə “Oxu guşəsi” hazırlamaq istəyirdilər. Bu fikirlərini Şəlalə müəllimə bildirdilər. Müəllim uşaqların fikirlərini çox bəyəndi. Onlar birlikdə lazım olan əşyaları alaraq sinfin bir hissəsini guşə üçün hazırladılar. Qəhvəyi rəngdə kitab rəfi, xalça, rəngli döşəklər bu guşəyə gözəllik verirdi. Uşaqlar bədii kitablar gətirərək Oxu guşəsinin rəflərinə düzdülər. Artıq onlar boş qalan vaxtlarını burada daha səmərəli keçirəcəkdilər. Bu ideya digər sinif şagirdlərinə də örnək oldu.

Hekayəni səsli dinlə



## Əl işi

1. Uşaqlar mağazadan 5 dənə döşək aldılar. Hər rəngli döşək 1 manat olarsa,uşaqlar döşəklərə nə qədər pul xərcləmiş olarlar?

2. Rəf üçün 2 dənə 2 manat, xalça üçün isə 3 dənə 1 manat ödəsələr, cəmi neçə manat xərcləyərlər?

## Nitq quruculuğu

Bəs siz belə bir guşə hazırlasanız bunun üçün sizə nə qədər pul lazım olar? Fikrinizi əsaslandırın.



## 4-cü hissə

# Tamamlanmış məktub

Şəlalə müəllim davam etdi:

-Məktubun içərisində bizə yeni bir məktub göndərilib. Bu mahnının adı “Qırmızı şar”dır. Gəlin, bu mahnını diqqətlə dinləyək və onun ritminə uyğun kiçik bir rəqs öyrənək. Hazırsınız? O zaman başlayaq və birlikdə əylənək.

*Mahnını buradan dinlə*

Hekayəni səsli dinlə



## Əl işi

1. Mahnını dinləyin və ritminə uyğun əl çalın.

2. Mahnının ritminə uyğun rəqs hərəkətləri edin.

## Nitq quruculuğu

1. Mahnını xor oxuyun.

2. Mahnının sözlərini öz sözləriniz ilə ifadə edərək məzmununu danışın.



1-ci hissə

# Fəridin bir günü

Biri var idi, biri yox idi. Uzaq kəndlərin birində Fərid adlı igid bir oğlan var idi. Fərid və dostları kənddə ox atmaqda, at çapmaqda ad qazanmışdılar. Yoxsula əl tutmağı, köməksizə kömək etməyi özlərinə vəzifə etmişdilər.

Fəridin ailəsi meyvə-tərəvəz əkib-becərməklə məşğul idi. Onların satışına isə Fərid baxırdı. Səhər tezdən Fərid meyvə-tərəvəzlərdən bazara satmağa gətirər, tez bir vaxtda da satıb geri qayıdardı. Bazardan qayıtdıqdan sonra yeməyini yeyib dincələr, sonra dostları ilə çıxıb at çapardılar.

Hekayəni səsli dinlə



## Əl işi

1. Mətndən "F" hərfi ilə başlayan sözləri taparaq hecaya bölün.

2. Plastilindən "F" hərfini hazırlayın.

## Nitq quruculuğu

1. Nə üçün Fərid bazarda tez bir zamanda satış edirdi? Bunun hansı səbəbləri ola bilər?

2. Satışın uğurlu olma ehtimallarını düşünün və fikirlərinizi irəli sürün.



2-ci hissə

# Fatehin itməsi

Yazın ilk günləri idi. Fərid dostları ilə at çaparkən yolun kənarında ağlayan bir uşaq görür. Atdan düşərək soruşur:

-Sənin adın nədir?

-Fateh.

-Fateh, bəs sən burada tək nə edirsən?

-Mən mağazadan qayıdırdım, ancaq evimizin yolunu tapa bilmədim.

-Fateh , gedək bizə. Söz verirəm sənin ailəni tapacağam.

Fərid onu evlərinə gətirir. Kiçik qardaşı Fuadı səsləyir:

-Fuad, gəl Fatehlə tanış ol.

Fuad Fatehlə tanış olub onu öz otağına apardı. Onlar bir xeyli söhbət etdilər . Sonra Fuad stoluna yaxınlaşdı:

-Mən dərs oxuyuram. Sən məktəbə gedirsən? Oxuya bilirsən?

-Yox. Mən hələ məktəbə getmirəm.

-Gəl, mən sənə öyrədim. Biz bu gün "F" hərfini keçmişik. Bax, müəllim bizə "F" hərfini belə yazmağı öyrədib.

Fuad Fatehlə birlikdə dərslərini hazırladı.

Hekayəni səsli dinlə



## Əl işi

1. Dəftərdə “F f” hərfini və tərkibində “f” hərfi olan sözləri hüsnxət normalarına uyğun yazın.

2. Obrazların adları hansı hərflə başlayır? Həmin sözləri hecalara bölərək yazın.

## Nitq quruculuğu

1. Fateh evini tapmayanda hansı hissləri keçirə bilər?

2. ***Debat :***
Fateh Fəridin sözünə inanaraq onlara getməklə düzgün hərəkət etdi.

Fateh Fəridin sözünə inanaraq onlara getməklə düzgün hərəkət etmədi.



3-cü hissə

# Fatehin görünməyən istedadı

Artıq gecədən xeyli keçmişdi. Fuad yuxulasa da, Fatehin hələ də gözlərinə yuxu getmirdi. O, bir az yatmışdı ki, yenidən oyandı. Gözlərini açan kimi anasını səslədi. Amma onun səsinə səs verən olmadı.

Sakitcə həyətə endi. Bağçaya düşüb güllərin arasında oturub oxumağa başladı. Fuadın necə gəldiyini bilmədi. Fuad :

-Fateh, sənin necə gözəl səsin var. Hansı mahnını oxuyursan? Mən heç bu mahnını bilmirəm. Mənə də öyrədərsən?

-Bu Oktay Zülfüqarovun "Gözəl Vətən" mahnısıdır. Gəl birlikdə oxuyaq.

Onlar birlikdə mahnı oxuyub gedib yatdılar.

Hekayəni səsli dinlə



## Əl işi

1. "Gözəl Vətən" mahnısını xor şəklində oxuyun.

*Mahnını buradan dinlə*

2. Mahnının ritminə uyğun rəqs hərəkətləri nümayiş etdirin.

## Nitq quruculuğu

"Gözəl Vətən" mahnısının sözlərini diqqətlə dinləyərək öz sözlərinizlə nəql edin.



4-cü hissə

# Fatehin sevinci

Səhər açıldı. Fuadın anası Sərfinaz xala bağda meyvə yığırdı. Fuad Fatehi bağa apardı. Fateh bağda meyvə yığan Sərfinaz xalaya baxıb heyrətini gizlədə bilmədi.

-Sərfinaz xala, burada nə qədər meyvə ağacları var?
Sərfinaz xala gülümsədi, sonra Fateh üçün bir səbət meyvələrdən yığıb ona pay verdi.

Bu zaman Fəridin səsi eşidildi.

-Fateh, Fuad haradasınız? Görün sizə kimləri gətirmişəm?

Fateh ana-atasını görüb gözlərinə inanmadı. Onların üstünə atıldı, bərk-bərk qucaqladı. Fəridə tərəf baxıb dedi:

-Sən mənim valideynlərimi necə tapdın? Mən kəndin cavanlarını yığıb sənin ailən haqqında axtarış etdim. Çətinliklə də olsa onları tapdıq.

Fateh və valideynləri Fəridə təşəkkür edib evlərinə getdilər.

Hekayəni səsli dinlə



## Əl işi

1. 10-dan geri sayın.

2. 10-a kimi 2-2 ritmik saydıqda 4-cü ədəd neçə olacaq?

3. 10-a kimi 2-2 ritmik saydıqda 3-cü ədəd neçə olacaq?

4. Sərfinaz xala 2 vedrə gilas, 4 vedrə şaftalı, 3 vedrə də ərik yığmışdı. Onun yığdığı meyvə vedrələrinin cəmi sayı neçədir?

## Nitq quruculuğu

1. Fatehin yaşını ehtimal edin. Fikrinizi əsaslandırın.

2. Bağda olan meyvə ağacları ilə bağlı məsələ qurun.

3. Fateh Sərfinaz xalaya meyvələrə görə necə təşəkkür edə bilər?

## Rəgləmə və əl işi üçün QR kodu oxudun

Elmanın səhvi

Düyməcik hekayəsi

Vətənim hekayəsi

A hərfi

Ə hərfi

T hərfi

I hərfi

M hərfi

B hərfi

Y hərfi

S hərfi

QEYDLƏR:

QEYDLƏR:

Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

PAŞA Holding

MİLLİ TƏHSİL TEXNOLOGİYALARI MƏRKƏZİ

İNKİŞAF KORPORASİYASI

Uşaqlar üçün "Balaca Tacirlərin Macəraları" dərsliyi Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sifarişi və Paşa Holding-in dəstəyi ilə KOB-lar üçün İnsan İnkişafı Forumu və Platforması layihələri çərçivəsində Milli Təhsil Texnologiyaları Mərkəzi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Tibb Universiteti və İnkişaf Korporasiyasının birgə işçi qrupu tərəfindən hazırlanmışdır.

KOB-lar üçün

**İnsan İnkişafı Forumu**



**Bəhram əmi tövsiyə edir**